XURAMAN MURADOVA

# ƏSRƏ BƏRABƏR
# 20 il

Bakı – 2024

**Redaktor:**
**Çingiz ABDULLAYEV**
*Xalq yazıçısı*

**Rəyçi:**
**Natiq Rəsulzadə**
*Xalq yazıçısı*

**Xuraman Muradova. Əsrə bərabər 20 il.**
**Bakı, "Elm və təhsil", 108 səh.**

Müzəffər Ali Baş Komandanımız Cənab İlham Əliyevin xalq üçün yaşanmış şərəfli ömür yolundan bəhs edən "Əsrə bərabər 20 il" kitabı dahi rəhbərimizin siyasətini hər zaman ən sədaqətli əsgər kimi dəstəkləyən Xuraman xanım Muradovanın möhtərəm Prezidentimizə böyük sevgisinin və vəfa borcunun izharıdır.

4702000000
N-98-2024 qrifli nəşr

© Xuraman Muradova, 2024



## MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN CƏNAB İLHAM ƏLİYEV KÖNÜLLƏRİMİZİN FATEHİDİR!

Yaşatdı xalqına böyük bir Zəfər,
Zülmlərə qılınc çalan Komandan!
Ürəyi dağ boyda, ruhu göy qədər,
Könüllərə məlhəm olan Komandan!

Ata vəsiyyəti hasilə yetdi,
Ulu Öndərimin ruhun şad etdi,
Dar gündə xalqına imdada yetdi,
Əsrin Qəhrəmanı olan Komandan!

Zalımı, haqsızı yerlərə sərdi,
Şaxtalı Şuşama bahar gətirdi,
Yalçın qayalarda çiçək bitirdi,
Xarı bülbülümə həyan, Komandan!

Arazdan su içdi Xudafərində,
Bizi salamladı Laçın elimdə,
Hoçaz, Qırxqız, İşıqlı, Güləbirdə,
Qalib kimi ayaq basan Komandan!

Bayrağı lütf etdi əmin əllərə,
Zəfər müjdələdi Turan Ellərə,
"Dəmir yumruq" düşüb dildən-dillərə,
Xalqımın Fatehi olan Komandan!

Xuramanam, dövlətimə əsgərəm!
Haqqın aşiqiyəm, Haqqa məşələm!
Turanın Ər Oğlu, Sən ey Möhtərəm
Xalqımıza Komandansan, Komandan!

İlham Əliyev şərəfli ömrünün 20 ilini millətinə, məmləkətinə fəda edən böyük ürəkli Türkdü...

Ömrünün Cumhurbaşqanlığa adanmış 20 ilini Əsrə bərabər yaşamış Dahi İnsandı...

İlham Əliyev Müqəddəs Haqq Savaşının ən Böyük Mücahididi...

İlham Əliyev Şuşa böyüklükdə Qalanın fatehidi...

Bu məmləkətin Laçın, Xankəndi, Kəlbəcər, Ağdam, Cəbrayıl, Zəngilan, Qubadlı, Xocalı, Füzuli boyda yarasını Bayraqla sarıyan şəfalı Təbibdi, Loğmandı...

İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin adının haqqını verən Ali Baş Komandanıdır.

İlham Əliyev inanılmaz fiziki gücə və iradəyə sahib, son dərəcə savadlı, mədəni, alicənab, bilgiləri ilə bütün dünyaya meydan oxuyan Əfsanə kimi Adamdı...

İlham Əliyev sadəcə Şuşa fatehi, Qarabağın xilaskarı, Vətən savaşı Qəhrəmanı deyil – Könüllərimizin Fatehi və bizim hamımızın Qəhrəmanımızdğır...

İlham Əliyev Ulu Öndərin uca Türk Millətinə ən qiymətli Mirasıdır...

İlham Əliyev bu xalqın Ər qeyrətli Atasıdır...





***

42 yaşında ölkəmizin ən ali vəzifəsinə seçilən cənab İlham Əliyev, ötən 20 il içində xalqımıza qələbələr, zəfərlər, uğurlar yaşatdı. Bizi uğursuzluq zolağından çıxaran lider, Ata vəsiyyətinə əməl edərəl Ulu Öndərin müqəddəs ruhunu şad etdi, gələcək nəsillərə yol göstərdi, üfüq və qanad verdi... O, xalqını, xalqı da onu bağrına basdı. – Bunun parlaq ifadəsidir ki, 2020-ci ilin Qalib Azərbaycanına, 2023-cü ilin öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycanına inanan – bu günləri görən müdrik xalqımız, 2003-cü ildə olduğu kimi, 2008, 2013, 2018-ci illərdə də İlham Əliyevə etimad göstərdi, səs verdi. 2024-cü ilin bu günlərində də yeganə Prezident olaraq xalq yenə də Onu görmək istədi, Ona etimad göstərdi. Xalqın müdrikliyi, Prezidentin xalqcanlılığı və öz sözünün sahibi, içdiyi andına sadiqliyi, əhdinə vəfadarlığı bu günkü parlaq tarixi faktlar işığında çox möhtəşəm görünür.

İlham Əliyev 2003-cü il oktyabrın 15-də Azərbaycan Prezidenti seçilənədək, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun müəllimi, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, birinci vitse-prezidenti, Milli Məclisin üzvü, Milli Olimpiya Komitəsinin Prezidenti, Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini, YAP sədrinin birinci müavini, (sonralar partiyanın sədri), Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Milli Məclisin nümayəndə heyətinin rəhbəri, AŞPA sədrinin müavini, AŞPA-nın Büro üzvü, Azərbaycan Respubli-

kasının Baş naziri kimi çox fərqli və çox önəmli vəzifələr daşımışdı.

Çağdaş dünya birliyinin ən təcrübəli liderlərindən olan İlham Əliyevin təltiflərinin yalnız bir qismini xatırlatmaqla, onun beynəlxalq səviyyədəki nüfuzunu aydın görmək mümkündür:

"Rumıniya Ulduzu" ordeni (11.10.2004), Səudiyyə Ərəbistanının "Kral Əbdüləziz" ordeni (08.03.2005), Polşanın "Xidmətlərə görə" Böyük Xaç ordeni (26.02.2008), Ukraynanın I dərəcəli "Knyaz Yaroslav Mudrı" ordeni (22.05.2008), Latviyanın "Üç Ulduz" ordeninin "Böyük Xaç Kavaleri" dərəcəsi (10.08.2009), Rus Pravoslav Kilsəsinin "I dərəcəli Şöhrət və Şərəf" ordeni (24.04.2010), Bolqarıstanın "Stara Planina" ordeni (14.11.2011), Belarusun "Xalqlar dostluğu" ordeni (28.08.2012), "Serbiya Respublikasının lentli Ordeni" (22.02.2013), Türkiyənin "Dövlət nişanı" ordeni (12.11.2013), Ukraynanın "Azadlıq" ordeni (18.11.2013), Qazaxıstanın "Altın Kıran" ("Qızıl qartal; 24.08.2022) ali ordeni, Türk Dünyasının Ali Ordeni (12.11.2021) və başqa fəxri ordenlər...

Prezidentin Fəxri elmi adlarını yada salaq:

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun fəxri doktoru (07.02.2004), Lev Qumilyov adına Qazaxıstan Dövlət Avrasiya Universitetinin fəxri professoru (01.03.2004), Türkiyənin Qırıqqala Universitetinin fəxri doktoru (25.03.2004), Bilkənd Universitetinin fəxri doktoru (14.04.2004), Rumıniyanın Ployeşti Neft-Qaz Universitetinin fəxri doktoru (12.10.2004), Bolqarıstan Milli və Dünya





Təsərrüfatı Universitetinin fəxri professoru (23.09.2005), Koreya Respublikasının Kyunq He Universitetinin fəxri doktoru (24.04.2007), İordaniya Universitetinin fəxri doktoru (29.07.2007), Macarıstanın Korvinus Universitetinin fəxri doktoru (18.02.2008), Moskva Dövlət Universitetinin fəxri professoru (21.02.2008), Taras Şevçenko adına Kiyev Milli Universitetinin fəxri doktoru (22.05.2008), Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinin fəxri professoru (28.11.2008), Belarus Dövlət Universitetinin fəxri professoru (12.11.2009), Çinin Renmin Universitetinin Tarix üzrə fəxri professoru (11.12.2015) və başqa fəxri adlar...

Əlbəttə, beynəlxalq nüfuz ölkə içində qazanılmış nüfuzun inikası, davamıdır.

İlham Əliyevin prezidentliyi dönəmində çəkilən yollar, qazılan tunellər, salınan körpülər... Azərbaycandan keçən yaxud Azərbaycandan başlayan böyük nəqliyyat xətləri, bir sözlə, infrastruktur layihələri qeyri-adi dərəcədə həyati və fövqəladə dərəcədə önəmli olub, ölkəmizə üstünlüklər gətirdi. Bəli, dövlət başçısının sarsılmaz siyasi iradəsi, qəbul edilmiş proqramlar, alternativlərin ən yaxşısı olan yol xəritələri nəhayətdə öz bəhrəsini verdi – bizi böyük Zəfərə götürdü...

Ötən illər ərzində Azərbaycan Prezidenti xarici münasibətlərdə dövlətimizi ləyaqətlə təmsil etdi. İlham Əliyev hər xarici səfərində, hər beynəlxalq platformada xalqımıza qürur yaşatdı, bu gün də qürur yaşadır, gələcəkdə də qürurumuz olacaq.

O, Azərbaycanın dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, eləcə də, respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə ləyaqətlə əməl edilməsinin təminatçısı olduğunu əməldə parlaq şəkildə sübut etdi.

Prezident Ali Baş Komandan olaraq, Silahlı Qüvvələrimizin qüdrət qazanması, istənilən tapşırığı qüsursuz yerinə yetirməsi üçün var gücü ilə çalışdı, çalışır və bu yolda yürüyənlərə örnəkdir.

Ötən illərdə dövlət büdcəsində hərbi xərclərin çəkisi xüsusi şəkildə artırılaraq elə səviyyəyə çatdırıldı ki, işğalçı dövlətin ümumi büdcəsi ilə müqayisə olundu. Azərbaycan Respublikasının hərbi doktrinasını ali qanunvericilik orqanına təqdim edən Prezident, dövlətin həmçinin çox vacib sosial-iqtisadi proqramlarını təsdiq etdi, mərkəzi və yerli icra hakimiyyəti orqanlarını yeni çağırışlara uyğun dizayn etdi.

Heç təsadüfi deyil ki, 44 günlük müharibədən sonra da Orduya ayrılan vəsaitlər azaldılmadı – daha da artırıldı və bu həyati qərarın nə dərəcədə effektiv olduğu göz qabağındadır: ərazi bütövlüyümüz və Qarabağda dövlət suverenliyimiz tam bərpa olundu!

200 illik bir torpaq iddiasını, bitməyən savaşı 20 ilə durdura bilən dövlət başçısının adı daim könlümüzdə, qələmimizdə, kitabımızdadır! Başı ucaltdığı üçrəngli bayrağımız kimi daim uca olsun! Allah Ali Baş Komandanımızı qorusun! Allah Azərbaycanımızı, xalqımızı, dövlətimizi, dövlətçiliyimizi qorusun! Allah müzəffər ordumuzu, yenilməz ordunun qalib sərkərdəsini qorusun! Allah birliyimizi, diriliyimizi, bütövlüyümüzü qorusun!





## XURAMAN MURADOVA: UCA RƏBBİM MÜZƏFFƏR XALQIMIZIN MÜZƏFFƏR OĞLUNU QORUSUN!

Fevralın 7-də bütün ölkə ictimaiyyəti ümumxalq məhəbbəti və böyük ruh yüksəkliyi ilə İlham Əliyevə yekdilliklə səs verərək yüksək inam və sevgiylə Onu Azərbaycan Respublikasının Prezidenti seçdi. Səmimi etiraf edək ki, həm prezident seçkiləri ərəfəsində, həm də ötən ilin son günlərində Xankəndindən, Xocalıdan Türk dünyasını salamlayan Müzəffər Ali Baş Komandanımızın qürur dolu çıxışlarının təsiri ilə xalqımız bir daha qələbə ruhu ilə zəfər günlərinin sevincini yaşadı...

Qalib bir ölkənin vətəndaşı kimi bu günləri yaşamaq izaholunmaz dərəcədə möhtəşəm duyğudur... Bunu bütün varlığınla hiss etmək hətta qışın sərt çağları olsa belə bahar kimi səadət gətirir adamın ömrünə... Bu duyğudan ən çox pay alan yəqin ki, yaradıcı adam, yaradıcı təxəyyül olur...

Zəfərin bəxş etdiyi əzəmət və ilahi bir hüzur hissi ilə yaşadığımız ötən günlərə boylanmaq, həmin günləri səhifələmək isə bir ayrı qürurdur...

Həmin günlərdə Ali baş komandanın azad Qarabağa ilk səfəri zamanı bir hadisə heç unutmayacağım xatirələrlə yaddaşımda iz qoydu... Füzulidə bir çay evində adamlar oturub çay içdiyi vaxtda Cənab Prezident idarə etdiyi maşını saxlayır və orda oturan adamlara tərəf gedir. Çox təsirli bir mənzərə idi. Hamı ayağa qalxıb ona sarı yüyürür

və "Qarabağ! Qarabağ!" deyirdi. Bu kadrları izləyəndə çox duyğulandım... Necə ki, övladımız bizə adımızı yox "Ana", "Ata" deyə müraciət edir, həmin an anladım ki, Ali baş komandan bu xalqdan ötrü "Qarabağ" imiş, lap övladın "Ata" deyə doğma səslənişi kimi...

Biz O Atanın dəmir yumruğu, yolgöstərənliyi, əzmi və yenilməz iradəsi ilə 44 günlük böyük, şərəfli bir yol yürüdük...

Sözün həqiqi mənasında əfsanə kimi günlər yaşadıq. Lap Çingiz Aytmatov demişkən, "Əsrə bərabər gün"lər...

Və İlham Əliyev müdrik siyasəti ilə bütün dünyaya bəyan etdi ki, O, mənfur qonşularımızın 200 illik torpaq iddialarını 20 il düşünüb-daşındı və 44 günün içində sülh yolu ilə tamamladı, uzaqgörən siyasəti, ağlı, müdrikliyi, cəsarəti, dünyagörüşü, mərhəməti, insansevərliyi ilə hər bir azərbaycanlının prezidenti olmağı bacardı...

Tarixi yenidən yazdı,
Qalibiyyət xəbəriniz!
Yayıldı Turan elinə,
Sizin, şanlı zəfəriniz!

Düşmənin namərd bağrına
Haqq gülləsini vurdunuz.
Yazdığınız bu tarixlə,
Yeni bir Vətən qurdunuz!





Birləşib "Dəmir Yumruq"la,
Eyni yolda, eyni izdə...
Yolunuz Haqq yolu oldu,
Haqq dil açdı qəlbinizdə.

Qəhrəman, igid oğullar,
Yoluna can qoydu, Vətən!
Torpağına göz dikənin,
Gözlərini oydu, Vətən!

Yolumuz Turana doğru,
Birləşək biz gərək, Vətən!
Şuşaya çəkildi bayraq,
Zəfərin mübarək, Vətən!

Üç rəngli hür bayrağımız,
Dalğalanır Qarabağda.
Xankəndində, Xocalıda,
Ağdərədə, Murovdağda.

Yaşasın! Baş Komutanım!
Yaşasın! Qalib ordumuz!
Düşməndan azad edildi,
Bizim o cənnət yurdumuz!

Əbədiyən Qarabağda,
Cəsur nəğməmiz çağlasın!
İndi zəfər marşımızı
Duyduqca düşmən ağlasın!

***

Görkəmli dövlət xadimi, yeni əsrin yeni lideri olan İlham Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etməsindən düz 20 il zaman ötür. 2003-cü il oktyabrın 15-də ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyev xalqımızın etimadını qazanaraq Azərbaycan Prezidenti seçildi və bununla da ölkəmizin inkişafında yeni bir mərhələ başlandı. 1993-cü ildə Heydər Əliyev siyasi rəhbərliyə qayıdandan sonra müstəqilliyini itirmək, parçalanmaq təhlükəsindən xilas olan Azərbaycan inkişaf yoluna çıxdı. Heydər Əliyev siyasi kursunun diktə etdiyi sülh, sabitlik və tərəqqi yolunun alternativsizliyini bütün dünya gördü. Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 2003-cü ildə keçirilən seçkilərdə onun layiqli davamçısı İlham Əliyevi dəstəkləyərək Prezident seçdi.

20 illik fəaliyyəti dövründə Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. Xalqın öz liderinə inam və etimadı son dərəcədə artdı. Məhz buna görə də 2008-ci, 2013-cü və 2018-ci illərdə olduğu kimi 2024-cü ildə keçirilən prezident seçkilərində də İlham Əliyev yenidən inamlı qələbə qazandı.

Əsrə bərabər 20 ilin zirvəsində təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yarandı.





Tarixə nəzər salsaq görərik ki, ötən 20 ildə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər həyata keçirildi. Bunun nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Məhz bu ordu öz Ali Baş Komandanının qüdrətli sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq qurtuluş savaşını başladı və dünyanı heyrətə salan hərbi uğurlara imza atdı. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olundu.

Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın noyabrın 8-də işğaldan azad edilməsi tariximizə şanlı Zəfər Günü kimi yazıldı. Bundan iki gün sonra isə işğalçı Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini Azərbaycan özü icra etdi.

Dünya hərb tarixində xüsusi yer tutan bu müharibə Prezident İlham Əliyevin daha bir keyfiyyətini – sərkərdəlik məharətini üzə çıxardı. O, əməliyyatlara şəxsən nəzarət edir, döyüşən orduya tapşırıqları birbaşa özü verirdi. Qələbəni şərtləndirən mühüm amillərdən biri də Azərbaycan Prezidentinin diplomatiya müstəvisində çevik siyasəti oldu. Müharibə dövründə dövlətimizin başçısı İlham Əliyev

xarici KİV-lərə 30-dan çox müsahibə verdi ki, bu da münaqişə ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynadı.

Vətən müharibəsində qazanılmış parlaq Qələbə həm də son 30 ildə həyatın bütün sahələrində əldə olunmuş uğurlarla, dinamik inkişafla bilavasitə bağlıdır. İlk növbədə, güclü və qüdrətli dövlət yaratmaq lazım gəlirdi. Ötən 20 ilə nəzər salsaq görərik ki, dövlətimizin başçısı xalqa verdiyi bütün vədləri yerinə yetirib. Bu müddət ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb.

Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi uzunmüddətli iqtisadi inkişaf strategiyası ölkənin regionlarının davamlı və tarazlı inkişafının təmin olunmasını, o cümlədən yerlərdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah, təbii resursların səmərəli istifadəsini və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasına imkan verən əlverişli mühit yaratmaq məqsədini daşıyır. Bu strategiyanın həyata keçirilməsində, o cümlədən ölkənin regionlarının sosial-iqtisadi inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər üzrə) böyük əhəmiyyət kəsb edir. 2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açmışdır.





Prezidentin qayğısı və diqqəti sayəsində son illərdə Bakı şəhərində və onun qəsəbələrində də tikintiquruculuq işləri daha geniş vüsət alıb. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair 2006-2007, 2011-2013 və 2014-2016-cı illəri əhatə edən Dövlət Proqramlarının icrası, eləcə də Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramında Bakı şəhəri və qəsəbələri üzrə həyata keçirilən tədbirlər Bakı şəhərində irimiqyaslı infrastruktur layihələrinin gerçəkləşməsinə, sahibkarlıq və investisiya fəaliyyətinin genişlənməsinə, əhaliyə göstərilən xidmətlərin, o cümlədən kommunal və sosial xidmətlərin həcminin və keyfiyyətinin daha da yaxşılaşmasına, abadlıq işlərinin sürətlənməsinə şərait yaradıb. Həmin proqramların icrası nəticəsində Bakı şəhəri, onun qəsəbə və kəndləri yeni inkişaf mərhələsinə qədəm qoyub, rəqabətqabiliyyətli və ixracyönümlü ən müasir müəssisələr yaradılıb, yeni iş yerləri açılıb, əhalinin həyat səviyyəsi daha da yüksəlib.

Kənd təsərrüfatı sahəsində ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilib, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılıb. Kənd təsərrüfatı məhsullarını istehsalçılarının istifadə etdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin orta hesabla 50 fai-

zinin dövlət tərəfindən ödənilməsi, eləcə də dövlət büdcəsinin vəsaiti hesabına buğda istehsalının stimullaşdırılması məqsədilə yardım verilməsi, toxumçuluq və damazlıq işləri üzrə müəyyən işlərin görülməsi, aqroservis xidmətlərindən güzəştli qiymətlərlə istifadə, Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına verilmiş güzəştli kreditlər kənd təsərrüfatı istehsalı sahəsində ilbəil dinamik inkişafın əldə edilməsini təmin edən amillərdəndir.

Aqrar sektorun innovativ əsaslara keçirilməsi, o cümlədən aqroparkların yaradılması dövlət başçısının əsas hədəflərindəndir. Dövlət başçısının tapşırığına uyğun olaraq hazırda 33 rayon üzrə 51 aqroparkın, o cümlədən 17 müasir cins heyvandarlıq kompleksinin və 34 iri bitkiçilik təsərrüfatlarının yaradılması üzrə işlər sürətlə davam etdirilir.

2021-ci il iyunun 15-də Şuşada imzalanmış Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsində də Zəngəzur dəhlizinin açılmasının bölgənin həyatında yeni mərhələ olacağı öz əksini tapıb.

2016-cı il oktyabrın 6-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" fərman imzalayıb. Şuranın yaradılmasında məqsəd 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetləri və onlara dair göstərişləri müəyyən etməkdən, ölkədə sosial-iqtisadi sahələri































əhatə edən dövlət proqramlarının və strategiyaların Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasını təmin etməkdən ibarətdir.

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı Milli iqtisadiyyat və iqtisadiyyatın 11 əsas sektorları üzrə strateji yol xəritələri təsdiq edilib və bu istiqamətlər üzrə müəyyən edilmiş tədbirlərin icrası uğurla davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilmişdir. Son 10 ildə Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Sənaye Parkı, Yüksək Texnologiyalar Parkı, Mingəçevir Sənaye Parkı, Mingəçevir Yüksək Texnologiyalar Parkı, Qaradağ Sənaye Parkı, Neftçala, Masallı və Hacıqabulda sənaye məhəllələri yaradılıb.

Ötən 20 ildə iqtisadi və sosial sahədə ciddi uğurlar qazanılıb, ölkə iqtisadiyyatı 3,2 dəfə artıb, yoxsulluq 49 faizdən təxminən 5 faizə enib, 2 milyondan çox yeni iş yerləri yaradılıb, əməkhaqları, pensiyalar və müavinətlər dəfələrlə artırılıb.

Son 20 ildə regionların inkişafında sosial məsələlərin həlli ilə bağlı zəruri tədbirlər davam etdirilib, insan amili daim diqqət mərkəzində saxlanılıb, bu sahəyə xidmət edən sosial infrastrukturun yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb. Təhsil, səhiyyə, mədəniyyət və digər sosial layihələrin reallaşdırılmasında mühüm rolu olan Birinci vitse-prezident, Heydər Əliyev Fondunun

prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələrin miqyası minlərlə insanın sosial şəraitinin yaxşılaşması üçün yeni imkanlar açıb.

Son 15 ildə regionlarda 3 mindən artıq məktəbdə, 400-ə yaxın məktəbəqədər təhsil müəssisəsində və 500-ə yaxın səhiyyə müəssisəsində tikinti, əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib. Regionlarda 34 olimpiya-idman kompleksi, 34 gənclər evi inşa olunub. 2004-cü ildən etibarən icra olunan regionların sosial-iqtisadi inkişafı dövlət proqramları hesabına ölkə əhalisinin 77 faizinin yaşadığı regionların sosial infrastrukturu köklü şəkildə yaxşılaşdırılıb və əhalinin rifah halı xeyli dərəcədə yüksəlib.

Ermənistanın hərbi təcavüzü nəticəsində yer-yurdlarından didərgin salınan məcburi köçkünlərin problemlərinin həlli dövlət başçısının daim diqqət mərkəzində olub. 2003-2021-ci illər ərzində məcburi köçkünlərin sosial problemlərinin həlli üçün ümumilikdə 6,7 milyard manat vəsait sərf edilib ki, həmin vəsaitin 4,2 milyard manatı dövlət büdcəsinin, 2 milyard manatı Dövlət Neft Fondunun, 396 milyon manatı beynəlxalq humanitar təşkilatların payına düşür.

Dövlət başçısının 2021-ci il iyulun 7-də imzaladığı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" tarixi Fərmanla Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılması Vətən müharibəsinin yekunu olaraq ərazi bütövlüyümüzün və suverenliyimizin daha bir təzahürü, ölkədə həyata keçirilən sosial-iqtisadi





islahatların keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının təsdiqidir.

İşğaldan azad edilmiş ərazilərə böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilmişdir. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması dövlət başçısının daim diqqət mərkəzindədir. Bütövlükdə, Birinci və İkinci Qarabağ müharibələrinin şəhid ailələrinə və müharibə əlillərinə 12 min 500 mənzil verilib. Bu kateqoriyadan olan şəxslərə və onların ailə üzvlərinə 2003-2021-ci illərdə 6000 avtomobil verilib. 2003-2021-ci illərdə əlilliyi olan şəxslər üçün 13 reabilitasiya müəssisəsi, həssas əhali qrupları üçün 7 sosial xidmət müəssisəsi, işsiz və işaxtaranlar üçün 4 Regional Peşə Hazırlığı Mərkəzi açılıb. Qanunvericiliklə müəyyən edilmiş qaydada ayrı-ayrı kateqoriyadan olan

şəxslərə sosial müavinət, təqaüd və kompensasiyalar ödənilir.

Ölkədə turizm komplekslərinin, otellərin, istirahət mərkəzlərinin istifadəyə verilməsi turizm infrastrukturunun inkişafına və beləliklə əhalinin istirahətinə geniş imkanlar yaradıb. 2003-cü ildə ölkədə cəmi mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 96 olduğu halda, regionların inkişafı istiqamətində qəbul olunmuş dövlət proqramlarının icrası nəticəsində belə obyektlərin sayı artaraq 560-ı keçib ki, bunun da 400-dən çoxu regionlarda fəaliyyət göstərir.

Siyasi, iqtisadi imkanlarının genişləndirilməsi Azərbaycanın beynəlxalq arenadakı mövqelərini möhkəmləndirib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Dünya Bankının "Doing Business" hesabatında reytinqə görə Azərbaycan 190 ölkə arasında 28-ci yerdədir. Bundan əlavə, Azərbaycan 10 ən islahatçı ölkə sırasına daxil edilmişdir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatına görə əhalinin elektrik təchizatı səviyyəsinə görə dünya miqyasında Azərbaycan ikinci yerdədir. İnkişaf etməkdə olan 74 ölkə arasında aparılan hesabata əsasən hökumətin islahatçı obrazı əmsalına görə Azərbaycan dünya miqyasında beşinci yerdə, uzunmüddətli strategiyasına görə 10-cu yerdədir. Hökumətin siyasi sabitliyi təmin etməsinə görə Azərbaycan 11-ci yerdədir. İnklüziv inkişaf indeksi üzrə Azərbaycan üçüncü yerdədir. Dünya İqtisadi Forumunun açıqladığı "Qlobal rəqabət qabiliyyəti" hesabatları üzrə Azərbaycan 2005-ci ildən 2020-ci ilədək 69-cu yerdən 34-cü yerə yüksəlib.





Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaş kimi tanınır. 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verilib. 2006-cı ildə istismara verilən Səngəçal terminalı Azərbaycan neftini Gürcüstan limanlarına daşınması üçün qəbul etməyə, həm də terminala tankerlərlə qəbul edilən Türkmənistan, Qazaxıstan və Rusiya neftini Bakı-Tbilisi-Ceyhan boru kəmərinə nəql etməyə imkan verir. Avropanı Asiya ilə birləşdirən və 2017-ci ildə istismara verilən Bakı-Tbilisi-Qars dəmir yolu, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi energetika və nəqliyyat mərkəzinə çevirib.

2018-ci ildə Türkiyənin Əskişəhər şəhərində Trans-Anadolu Qaz Boru Kəməri – TANAP qaz kəməri istifadəyə verilib. Azərbaycan qazını Avropaya nəql edən Trans-Adriatik Boru Kəməri – TAP-ın tikintisi yekunlaşıb. 2021-ci ildən başlayaraq İtaliyanın, Yunanıstanın və Bolqarıstanın Azərbaycanın maye qazından istifadəyə başlaması artıq Avropa qitəsinin bəzi dövlətlərinin gələcəkdə daha çox Azərbaycanın enerji sahəsində tərəfdaşı olmasına gətirib çıxaracaq. Bu gün Azərbaycanın Avropanın mavi yanacaqla təminatında xüsusi payı var.

2018-ci il may ayının 14-də Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışı olub.

Təməli 2020-ci ildə qoyulan Ələt Azad İqtisadi Zonası regionun ən böyük ticarət və logistika mərkəzinə çevrilməkdədir. Ələt qəsəbəsindəki ən böyük Xəzər limanı olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı da Ələt Azad İqtisadi Zonasının istifadəsi üçün ayrılmış ərazilərə daxil edilib.

Ölkəmizin ilk telekommunikasiya peykinin orbitə çıxarılması, idarə olunması və istismarı işlərinin həyata keçirilməsini təmin etmək məqsədi ilə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti yaradılıb. Azərbaycan bu gün dünyanın məhdud saylı kosmik ölkələri sırasında yer alır. "Azerspace-1", "Azersky" və "Azerspace-2" peykləri orbitdə uğurla fəaliyyət göstərir.

Prezident İlham Əliyev dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması, vətəndaşlara yüksək səviyyəli xidmətlərin göstərilməsi istiqamətində bir çox inqilabi islahatların müəllifidir. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini – "ASAN xidmət" mərkəzlərini buna misal göstərmək olar. "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində xidmətlərin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirilməsinə və vətəndaş məmnunluğunun daim yüksək səviyyədə saxlanılmasına nail olunub. Mərkəzlərin sayı və əhatə dairəsi artırılıb. Mərkəzlərdə 11 dövlət orqanı tərəfindən 53 əsas xidmət təşkil edilib. Hazırda 24





"ASAN xidmət" və 3 "ASAN Kommunal" mərkəzi olmaqla, ümumilikdə 27 mərkəzin vahid standartlar çərçivəsində idarə olunması və vətəndaşlara xidmət göstərilməsi üçün bütün imkanlar təmin olunub.

2018-ci ildən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi – DOST Agentliyi yaradılıb. DOST Agentliyinin missiyası əhalinin rifah halının yaxşılaşdırılmasından, həssas qruplara dövlət qayğısının artırılmasından və vətəndaş məmnunluğunu təmin etməkdən ibarətdir. Hazırda ölkədə 5 DOST mərkəzi fəaliyyət göstərir. 2025-ci ilədək Bakıda və ölkəmizin regionlarında 17 DOST mərkəzi, 55 DOST filialı istifadəyə veriləcək. Bu mərkəzlər 3 milyona yaxın şəxsə xidmət edəcək. Hazırda Bakıda DOST İş Mərkəzi, Rəqəmsal İnnovasiyalar Mərkəzi, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi fəaliyyət göstərir.

Son 20 il ərzində Azərbaycan dünyada həm də mühüm beynəlxalq tədbirlərin, yarışların keçirildiyi ölkə kimi tanınıb. Bakı "Eurovision" mahnı müsabiqəsinə, ilk Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, "Formula 1" yarışlarına, futbol üzrə Avropa çempionatının final mərhələsinin bir neçə oyununa ev sahibliyi edib.

Ötən dövr Azərbaycanda bütün sahələrin inkişaf etməsi ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşayiət olunub. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırıb. Ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Özündə 120 ölkəni birləşdirən və

BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına sədrlik edib. Təşkilata sədrlik müddətinin daha bir il artırılması Prezident İlham Əliyevin qlobal liderlik səylərinə verilən yüksək qiymətdir.

Bu gün Azərbaycan dünyanı həm də azad edilmiş ərazilərdə sürətli bərpa və yenidənqurma işlərilə heyrətləndirir. Bu ərazilərdə yeni yollar çəkilir, elektrik stansiyaları tikilir, Prezident İlham Əliyev azad edilmiş rayonlara çoxsaylı səfərləri zamanı strateji infrastruktur obyektlərinin açılışını edir, yenilərinin təməlini qoyur. Füzuli və Zəngilan Beynəlxalq Hava Limanlarının rəsmi açılışı olub. Açılışlarda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak ediblər. Laçın beynəlxalq hava limanlarının inşası davam etdirilir. Göygöldən Murov dağının altından Kəlbəcərə uzunluğu təqribən 12 km olan tunel sürətlə çəkilir. Şuşaya gedən Zəfər yolunun tikintisi tamamlanıb. Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Laçın, Qubadlı və Kəlbəcər şəhərlərinin baş planları təsdiqlənib, onların bərpası və yenidən qurulması istiqamətində işlər davam etdirilir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, erməni işğalçıları tərəfindən dağıdılmış şəhər və kəndlərimiz ən müasir texnologiyalara əsaslanan "Ağıllı kənd", "Ağıllı şəhər" konsepsiyaları əsasında bərpa olunacaq. 2021-ci il aprelin 26-da bu istiqamətdə artıq ilk addım atılıb. Zəngilan rayonunda yüksək texnologiyalara əsaslanan ilk "Ağıllı kənd" layihəsinin birinci mərhələsi başa çatdırılıb. Ağalı kəndində icra edilən layihədə Türkiyə, İsrail, İtaliya və Çinin qabaqcıl şir-





kətləri iştirak ediblər. Bu hadisə həm də Böyük Qayıdışın başlandığı gün hesab olunur. Erməni vandalları tərəfindən viran qoyulan Qarabağ və Şərqi Zəngəzur tezliklə cənnətə çevriləcək, keçmiş məcburi köçkünlər qısa müddətdə doğma yurdlarına qayıdacaqlar.

Yuxarıda sadalanan faktlar göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son 20 ildə əsrə bərabər inkişaf yolu keçib. Hələ 2003-cü ildə dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başlayarkən İlham Əliyev 42 yaşında idi və demişdi: "Mən hər bir azərbaycanlının Prezidenti olacağam". Hazırda ömrünün 62-ci ilində İlham Əliyev cəmiyyətdə mütləq çoxluğun böyük rəğbət və etimad göstərdiyi alternativsiz liderə çevrilib. Ötən 20 ildə Azərbaycan xalqı həmişə öz liderinə güvənib və inanıb, ona arxa və dayaq olub. Prezidentimizin özünün də böyük fəxrlə qeyd etdiyi kimi, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Bu qarşılıqlı inam sayəsində Prezident İlham Əliyevin Azərbaycanı dünyanın ən inkişaf etmiş dövlətlər cərgəsinə çıxaracağı günlər uzaqda deyil.

Xalqımız ölkənin yüksələn rifahı, dövlətin təhlükəsizliyi və beynəlxalq arenada nüfuzunun yüksəldilməsi sahəsində həyata keçirdiyi titanik işlərə görə dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq edir, daim Onunla qürur duyur.

Uca Rəbbim qalib xalqımızın Qalib Liderini, dövlətimizi, millətimizi, Azərbaycanımızı, Türk dünyamızı qorusun! Amin inşAllah!

## MEHRİBAN XANIM ƏLİYEVA - TARİX YAZAN SƏRKƏRDƏNİN ARXASINDA DAYANAN QEYRƏTLI TÜRK XATUNU...

Dəmir yumruğuyla bütün dünyaya diplomatiya dərsi öyrədən qalib ordunun Müzəffər Ali Baş Komandanın – Tarix yazan Sərkərdənin Xankəndindəki tarixi çıxışını dinlədikcə həm qürurlandım, həm də çox duyğulandım. Orda məni duyğulandıran məqam o idi ki, Prezidentimizin hər addımında yanında olan, bütün keşməkeşli yollarda onunla çiyin-çiyinə addımlayan hamımızın əzizimiz Mehriban xanım Əliyeva Xankəndində onları dövrəyə alan qəhrəman şəhidlərimizin Vətənə əmanət balalarını bir-bir bağrına basır, körpələrin saçlarını oxşayır, hətta soyuqda üşüməsinlər deyə o körpələrin hər birinin papağını, şərfini bir Ana nəvazişi ilə qaydaya salır, Ana qayğısı ilə onları köksünə sıxırdı. Dünya demokratiyanı, diplomatiyanı İlham Əliyevdən öyrənməli olduğu kimi, mərhəməti, şəfqəti, xeyirxahlığı da Mehriban xanımdan öyrənməlidir.

Mehriban Xanım həyatın ən keşməkeşli sınaqlarında, hər çətin addımında, Tarix yazan Sərkərdəmizin arxasında dayanan, varlığı ilə ona dayaq olan qeyrətli Türk Xatunudur. 1946-cı ildə Texasda dərc olunan "The Port Artur News" qəzetində Marill Frost haqqında maraqlı bir məqalə dərc olunur. "Amerika futbolu" idman növündə qazandığı nailiyyətlərə görə o, "ən yaxşı idmançı" adına layiq görülür. Marill özü isə bu hadisəni belə şərh edir:





"Məni bu qədər güclü kişi edən səbəb odur ki, arxamdakı qadın güclüdür..." Nədənsə bu sətirləri qələmə aldıqca Marill Frostun o fikri mənə cənab Prezidentimizin ömür sirdaşı dəyərli Mehriban xanımı xatırlatdı...

Cənab Prezidentimizin altına imzasını qoyduğu bütün müvəffəqiyyətlərin, nailiyyətlərin mənəvi güc qaynağı Mehriban xanımın varlığıdır. Onun dövlətimiz üçün, dövlətçiliyimiz üçün etdikləri bizə ürəklə onu deməyə əsas verir ki, Mehriban Xanım üstləndiyi ilahi missiyanı bir ömür uzunu çox şərəflə yerinə yetirib. Cənab Prezidentimizin arxasında dayanan zərif, qayğıkeş, təvazökar, sevgi və hüzur dolu, zəngin dünyagörüşlü, bilikli, savadlı, şəfqət dolu ürəyi ilə insanlığa örnək xeyirxah bir xanımdı Mehriban Xanım – Tarix yazan Sərkərdəyə təkcə həyat yoldaşı yox, həm də ömür sirdaşı kimi arxa-dayaq olan Arxadakı Qadındı...

Arxadakı Qadın – ön cəbhəni qoruyana dayaq olan arxa cəbhədəki əsgərdir...

Arxadakı Qadın – səhnədə, öndə sadəcə əməyi görünən, özü isə fonda o möhtəşəm səhnəni yaratmaq üçün min bir əziyyətə qatlaşan rejissordu...

Arxadakı Qadın – yaranışından çiyninə qorumaq missiyasını götürəndi.

Arxadakı Qadın – bu xalqın körpəsindən ixtiyar qocasına kimi hər bir fərdini doğması kimi bağrına basan, hamının qayğısına qalan, həlim bir mehribanlıqla şəfqət göstərməyi bacaran, xeyirxahlığı, gözəl əməllər sahibi olmağı öz həyat amalına çevirən Mehriban Xanımdı...

***

Xalqımızın ümummilli lideri Heydər Əliyevin ailəsindəki ən önəmli həyat prinsipi xalqa, millətə xidmət və sədaqət olub. Bu baxımdan Prezident İlham Əliyevin dövlətçiliyə və xalqa xidmət amalını bir ailə ənənəsi kimi qiymətləndirsək, yanılmarıq. Dövlətimizin başçısının rəhbərliyi ilə bütün sahələr üzrə həyata keçirilən siyasət Ulu Öndərin ideyalarının reallaşması, onun müəyyənləşdirdiyi siyasi xəttin uğurla davam etdirilməsi ilə səciyyəvidir. Bu işdə ölkə Prezidentinin ömür-gün yoldaşı və ən yaxın silahdaşı isə Birinci vitse-prezident, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevadır.

Vətən və xalq naminə fədakarlıq, müasir Azərbaycanın dinamik inkişafında, sosial məsələlərin həllində fəallıq, milli-mənəvi dəyərlərə sadiqlik, sərhəd tanımayan xeyirxahlıq, mərhəmət və şəfqət Mehriban Əliyevanın həyat fəlsəfəsinin əsas qayəsini təşkil edir. Mehriban xanım, həmçinin ölkəmizdə təhsilin, mədəniyyətin, səhiyyənin inkişafına dəyərli töhfələr verir, milli maraqların beynəlxalq aləmdə müdafiəsi, o cümlədən sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun təşviqi istiqamətində yorulmadan çalışır. Xalqımızın sosial rifahına hesablanan bir çox layihələrin müəllifi olan Mehriban Əliyeva birinci xanım adını da şərəflə daşıyır, dünyaya müasir Azərbaycan qadınının qürur doğuran obrazını təqdim edir. Sadəliyi, səmimiliyi, mehribanlığı, nəcibliyi, gözəl aurası ilə ətrafında xoş atmosfer yaradan Mehriban xanım haqqında "Washington Times" qəzeti belə yazır: "Azərbaycanın birinci xanımı: Müsəlman qadınlar üçün nümunəvi qadın obrazıdır".





"Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial bir insandır, eyni zamanda, çox xeyirxah bir insandır və təsadüfü deyil ki, Azərbaycan xalqı ona çox böyük rəğbətlə, sevgi ilə yanaşır", - Prezident İlham Əliyevin söylədiyi bu fikirlər Mehriban xanımın işgüzar və insani keyfiyyətlərini çox dəqiqliklə ifadə edir. O, doğurdan da milyonların qəlbində ümid çırağına, xeyirxahlıq ünvanına çevrilib.

Birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə 2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu Ümummilli Liderin ideyalarının reallaşdırılmasında, bu dahi insanın zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılması istiqamətində əvəzsiz xidmətlər göstərir. Xalqımızın xeyriyyəçilik ənənələrinin dirçəldilərək daha geniş miqyas alması bilavasitə Heydər Əliyev Fondunun prezidentinin göstərdiyi şəxsi nümunə nəticəsində mümkün olub. O, bütün qərarları ilə millidir: Vətəninin tərəqqisinə xidmət edir, ölkəsinin mədəniyyətinin, təhsilinin, idmanının inkişafı üçün yorulmadan çalışır. Heydər Əliyev Fondunun xətti ilə, hətta respublikamızın ən ucqar nöqtəsində belə inşa və bərpa edilən məktəb binaları, səhiyyə və tibb məntəqələri buna misal ola bilər. Bu məqsədlə bir çox proqramlar və layihələr həyata keçirilib. Fond Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması istiqamətində də fəal iştirak edib və edir.

Mehriban Əliyeva, eyni zamanda, beynəlxalq sülh, təhlükəsizlik, mədəniyyətlərarası və dinlərarası dialoq mühitinin formalaşması və möhkəmlənməsi, tarixi mədəni irsin qorunması kimi olduqca vacib məsələlərin həllinə böyük töhfə verir. On səkkiz ildir ki, Azərbaycan tarixini və mədəni irsini, ölkəmizlə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün yorulmadan fəaliyyət göstərir. Məhz onun səylərinin nəticəsi olaraq İçərişəhər, o cümlədən Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Həmçinin muğam və aşıq sənətimiz, "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti", "Dədə Qorqud irsi", Azərbaycan kəlağayı sənəti Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına salınıb. Bundan başqa, Azərbaycan 2019-cu ilin iyulunda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına uğurla ev sahibliyi edib.

2017-ci il fevralın 21-də Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi onun Azərbaycan dövlətçiliyinin inkişafı və möhkəmləndirilməsi naminə zəngin və fədakar fəaliyyətinin, habelə yüksək təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsi kimi qiymətləndirilir.

Mehriban Əliyevanın o vaxt dediyi sözlər yada düşür: "Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam".





Bu gün tam əminliklə söyləmək olar ki, yüksək dövlət vəzifəsində fəaliyyət göstərən Mehriban xanım Prezidentin də, ona inanan, ümid bəsləyən insanların da etimadını layiqincə doğruldur. Gündəlik fəaliyyətində insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribanlıq meyarlarını əsas götürür, fəaliyyətini məhz bu prinsiplər üzərində qurur, milli-mənəvi dəyərləri daim uca tutur. Onun ömür yolu, sözün əsl mənasında, Vətənə və xalqa xidmət nümunəsidir.

Birinci vitse-prezident təyin olunarkən Azərbaycanın iqtisadi inkişafı və xalqımızın rifahı naminə milli məqsədlərə nail olmaqla bağlı üzərinə nəcib missiya və yeni öhdəliklər götürən Mehriban Əliyevanın fəaliyyətində əhalinin həssas təbəqələrinin, o cümlədən məcburi köçkünlərin, şəhid ailələrinin, qazilərin problemlərinin həlli xüsusi yer tutur. Təsadüfi deyil ki, yeni yüksək vəzifədə keçirdiyi ilk müşavirəni qaçqın və məcburi köçkün ailələrin həyat şəraitinin yaxşılaşdırılmasına həsr etmişdi. Həmin müşavirədən dərhal sonra müvafiq tədbirlər planı hazırlandı və real işlər başlandı. Qısa müddətdə yüz minlərlə qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırıldı.

Heydər Əliyev Fondu Vətən müharibəsi zamanı şəhid olan hərbçilərin ailələrini və qazilərimizi də daim diqqətdə saxlayır, onların qayğısına qalır. Döyüşlərdə yaralanan hərbçilərimiz müalicə və reabilitasiya üçün Türkiyəyə göndərilib, həmçinin sağlamlıqlarını itirmiş bir qrup əsgər və zabit yüksək texnologiyalı protezlərlə təmin edilib.

Torpaqlarımızın azad olunması uğrunda mübarizəyə siyasi-mənəvi dəstək, xalqımızı milli həmrəyliyə səsləyən, şanlı Ordumuzu Qələbəyə ruhlandıran müraciət və çağırışlar, postmüharibə dövründə isə dövlətimizin başçısı ilə birlikdə Qarabağa çoxsaylı səfərlər, işğaldan azad edilən ərazilərimizdə həyata keçirilən genişmiqyaslı tikinti-bərpa işləri, Şuşada dünyaya səs salan möhtəşəm "Xarıbülbül" musiqi festivalının təşkili birinci xanımın xidmətləri sırasında xüsusi yer tutur.

Bu məqamda Mehriban xanımın Vətən müharibəsinin ilk günlərində xalqa müraciətindəki duyğusal sözlər yada düşür: "Qoy Uca Allah hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!". Bu müqəddəs arzu 44 gün ərzində reallaşdı. Doğma Qarabağımız Ali Baş Komandanın sarsılmaz iradəsi, Ordumuzun qüdrəti, xalqımızın birliyi və həmrəyliyi sayəsində azadlığına qovuşdu.

Azərbaycanın birinci xanımının təşəbbüsü olan genişmiqyaslı proqram və layihələrin sırasında ölkəmizdə təhsil sistemini modernləşdirmək və dünya təhsil sisteminə inteqrasiyasını təmin etmək hədəfi xüsusi yer tutur. "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" və digər proqramlar təhsilin inkişafında mühüm rol oynayır. 2005-ci ildən icrasına başlanılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində 100 mindən çox şagirdin təhsil aldığı 500-dən çox məktəb binası inşa olunub və yenidən qurulub. "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində isə 40-dan çox uşaq müəssisəsi əsaslı təmir edilib.





Əhalinin sağlamlığı məsələsinə gəlincə, "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi bənzərsiz layihələr, bir çox xeyriyyə aksiyaları böyük rəğbətlə qarşılanır, öz müsbət nəticələrini verir. Bu layihələr çərçivəsində Bakıda müasir Talassemiya Mərkəzi, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya Mərkəzi, Psixonevroloji Uşaq Mərkəzi və digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib.

Aztəminatlı ailələri və xüsusi qayğıya ehtiyacı olan şəxsləri daim diqqətdə saxlayan Heydər Əliyev Fondu bu istiqamətdə də mütəmadi olaraq müxtəlif layihələr həyata keçirir. Mehriban xanım Əliyeva xeyriyyəçilik fəaliyyəti ilə Azərbaycanda bu sahədə sosial-fəlsəfi təməl yaratmaqla yanaşı, gələcək nəsillərə nəcib bir yolun əsas konturlarını göstərir. Bu gün müasir Azərbaycanda ictimai həyatın xüsusi bir bölməsi sayılan xeyriyyəçilik institutu müasir dövrün reallıqları və tələblərinə uyğun olaraq inkişaf etdirilir. Tarixi ənənələrimizi dirçəldən, sosial-mənəvi tərəqqi üçün səmərəli vasitə yaradan xeyriyyəçilik institutunun rəhbəri isə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevadır.

Onun təşəbbüsü ilə Ermənistan-Azərbaycan münaqişəsi barədə həqiqətlərin, mədəniyyətimizin, dövlətçilik ənənələrimizin, tariximizin dünyada təbliği sahəsində məqsədyönlü iş aparılır. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsinin gedişində Azərbaycanın haqlı mövqeyinin nümayişi, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozan düşmənin dinc sakinləri hədəf alan hücumlarının beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində əməli addımlar atılıb. Mötəbər beynəlxalq qurumlarda, dünyanın müxtəlif ölkələrində sərgilər, mədəniyyət gecələri və digər tədbirlər təşkil olunub. Avropa Parlamentinin mənzil-iqamətgahında, Afinada, Kannda Azərbaycan mədəniyyəti günləri keçirilib, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzi açılıb.

Ölkəmizin böyük uğurla ev sahibliyi etdiyi "Eurovision" beynəlxalq mahnı müsabiqəsi, birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, eləcə də futbol üzrə Avropa çempionatının final mərhələsinin dörd oyunu Mehriban Əliyevanın yüksək təşkilatçılıq bacarığına malik olduğunu üzə çıxardı. Azərbaycan bu mötəbər beynəlxalq tədbirlərin möhtəşəm təşkili ilə hətta inkişaf etmiş ölkələri heyran qoydu.

Heydər Əliyev Fondu Qarabağ ərazisində ermənilər tərəfindən dağıdılan, Azərbaycan xalqının milli sərvəti olan dini abidələrin, məscidlərin bərpası üzrə layihəni uğurla davam etdirir. Yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması, 32 ildən sonra Şuşada, Cıdır düzündə Fond tərəfindən təşkil olunan "Xarıbülbül" musiqi festivalı, Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərinin notlarından ibarət "Əbədi imzalar" toplusunun, "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusunun hazırlanması Azərbaycan xalqının mənəvi, tarixi, mədəni irsinin təşviqi və qorunması işinə dəyərli töhfələrdir.





Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmır, ölkəmizin hüdudlarını aşaraq yaxın və uzaq xaricdə geniş əks-səda doğurur. Onun təşəbbüsü ilə Heydər Əliyev Fondu Vatikanda, Fransa, Pakistan, Bosniya və Herseqovina, Misir, Hindistan və digər ölkələrdə bir sıra önəmli layihələr icra edib.

Birinci xanımın xoşməramlı fəaliyyəti həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni, "Qızıl ürək" beynəlxalq mükafatı, Avropa Olimpiya Komitələrinin Ali ordeni, Fransanın "Şərəf Legionu" ordeni, İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordeni, Polşanın "Böyük Komandor Xaçı" ordeni, Rusiyanın "Dostluq" ordeni, UNESCO-nun "Qızıl Motsart" medalı... Bu, Azərbaycanın Birinci vitse-prezidentinin layiq görüldüyü mükafatların heç də tam siyahısı deyil. Mehriban Əliyeva hesab edir ki, ən böyük mükafatı xalqın ona olan sevgisi, inamı və etimadıdır. Onun dediyi kimi, "illər ötdükcə, qarşımıza yeni ideya və planlar çıxdıqca, məqsədlərimiz xaraktercə dəyişir, amma əsas ama-

lımız - Azərbaycan xalqına xidmət etmək amalı dəyişməz olaraq qalır və qalacaqdır".

Mehriban xanım elə bu amalla da öz ömür kitabını yazmaqda davam edir, onu gündən-günə, ildən-ilə yeni parlaq və mənalı səhifələrlə zənginləşdirir.





## XURAMAN MURADOVA: "AZƏRBAYCANIN BİRİNCİ XANIMI, ƏZİZİMİZ, ÖLKƏMİZDƏ XEYRİYYƏÇİLİYİN SİMVOLUNA ÇEVRİLƏN MEHRİBAN XANIM ƏLİYEVANIN XEYİRXAHLIQ YOLUNU MƏN HƏMİŞƏ BÖYÜK RƏĞBƏT HİSSİ İLƏ DƏSTƏKLƏMİŞ VƏ ÜRƏKDƏN ALQIŞLAMIŞAM..."

Əsrlərdir ki, bəşəriyyətin tərəqqisinə, xalqların intibahına və yüksəlişinə, dövlətlər və millətlərarası münasibətlərin inkişafına, sivilizasiyalar arasında dialoqun təmin olunmasına xidmət edən mütərəqqi ideyaların və fenomenal şəxsiyyətlərin fəaliyyətinin önəmindən söz açılır. Tarixi təcrübə, müxtəlif mənbələr milli maraqlarla ümumbəşəri dəyərlərin vəhdətini yaratmış, ənənələrlə müasir dəyərlərin ahəngini təmin etmiş şəxsiyyətlərin həm öz xalqları və dövlətlərinin tərəqqisi üçün töhfələrini, həm də bəşəriyyətin keçmişi ilə gələcəyi arasında mənəvi-siyasi körpü yaratmalarını təsdiq edir.

Təqdirəlayiq haldır ki, zəngin dövlətçilik tarixinə, bəşəri sərvət kimi dəyərləndirilən mənəvi dəyərlərə, unikal mədəni irsə və qabaqcıl təcrübəyə malik olan Azərbaycan xalqı da bu kontekstdə fərqlənməyi, dünyaya parlaq nümunələr təqdim etməyi bacarıb. Xalqımıza möhtəşəm tarixi nailiyyətlər qazandıran, dövlətimizi inkişaf və Zəfər zirvəsinə yüksəldən qüdrətli liderlərin - Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin qətiyyətli siyasəti bu reallığı təmin və mümkün edən əsas amildir. Ulu

Öndər Heydər Əliyevin yaratdığı ənənələr və müzəffər lider İlham Əliyevin yaşatdığı dəyərlər milli maraqlarımızın etibarlı müdafiəsi, Azərbaycanın gələcəyinin təminatıdır. Bununla yanaşı, Birinci vitse-prezident, YAP Sədrinin birinci müavini, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyəti milli və bəşəri dəyərlərə sadiqlik nümunəsi, güclü və nüfuzlu dövlətimizin dünyaya təqdimatı, xalqımızın yaradıcılıq və quruculuq əzminin nümayişidir.

Ümumiyyətlə, Mehriban xanım Əliyevanın ictimai-siyasi portretinin cizgilərinə və fəaliyyətinin mənəvi-siyasi əsaslarına nəzər saldıqda görürük ki, o, həm milli, həm də bəşəri missiyanın daşıyıcısıdır. Fəaliyyəti xalqının ali mənafeyinin, ölkəsinin dövlətçilik maraqlarının müdafiəsi ilə məhdudlaşmır, ümumbəşəri mahiyyət, qlobal məzmun daşıyır, insan amilinə, humanizm və vətənpərvərlik prinsiplərinə söykənir. Daha dəqiq desək, Mehriban xanım Əliyeva bu günə qədər müxtəlif vəzifələrdə uğurlu fəaliyyət göstərməklə Azərbaycanın tərəqqisində, beynəlxalq müstəvidə nüfuzunun artmasında, hədəflərin reallaşdırılmasında, milli maraqların qorunmasında, bəşəri dəyərlərin təbliğində və təşviqində müstəsna rol oynayıb. O, bu gün də Azərbaycana tarixi nailiyyətlər qazandıran çoxşaxəli fəaliyyətini inamla və əzmlə davam etdirir.

Faktlara nəzər yetirdikdə Mehriban xanım Əliyevanın nümunəvi ictimai-siyasi obraz yaratdığını, xalqımızı şərəflə və ləyaqətlə təmsil etdiyini, xalqın rifahına, ölkənin





firavanlığına hədəflənən, Azərbaycanın gücünün artmasına imkan verən işlər gördüyü məlum olur:

- Əvvəla, Mehriban xanım Əliyeva Milli Məclisin deputatı kimi inam və etimadı doğruldub, yeni standartlar və mütərəqqi örnək yaradıb. O, parlamentdə seçiciləri layiqincə təmsil etməklə vətəndaş-dövlət münasibətlərinin möhkəmlənməsinə, ictimai həmrəyliyin, milli birliyin güclənməsinə müstəsna töhfələr verib. Birinci xanımın təşəbbüsü ilə bir çox sosial məsələlərin həlli istiqamətində zəruri işlər görülüb. Amnistiya təşəbbüsləri ilə çıxış etməsi, xeyriyyə aksiyalarının keçirilməsi və digər mühüm işlər xüsusi qeyd edilməlidir. Təsadüfi deyil ki, Azərbaycan xalqı Mehriban xanım Əliyevanın Milli Məclisin deputatı kimi fəaliyyətini müsbət qiymətləndirib, seçiciləri ona bir neçə dəfə etimad göstəriblər;

- Mehriban xanım Əliyevanın ideya və təşəbbüsləri tarixi ənənələrin, milli-mənəvi dəyərlərin və dövlətçilik maraqlarının qorunmasını, yeni dəyərlərin təşəkkülünü təmin edib. Bu isə Azərbaycanın siyasi dayaqlarının möhkəmlənməsinə, bəşəriyyətin tarixi və mədəni irsinin zənginləşməsinə layiqli töhfə olub. Xüsusi qeyd etmək lazımdır ki, onun rəhbərliyi ilə Heydər Əliyev Fondu həm ölkəmizdə, həm də respublikamızın inzibati-coğrafi sərhədlərindən kənarda çoxşaxəli fəaliyyət göstərməklə ictimai, mədəni, humanitar nöqteyi-nəzərdən tarixi önəm daşıyan mühüm nailiyyətlərə imza atıb.

Müxtəlif sahələri əhatə edən məqsədyönlü tədbirlər həyata keçirən, səmərəli layihələr reallaşdıran fond həm

ölkənin inkişafında, həm də Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə təqdim olunmasında əhəmiyyətli rol oynayır.

Ən əsası, Heydər Əliyev Fondu Ümummilli Liderin zəngin irsinin araşdırılması və bu irsin xalqımızın mənəvi sərvəti kimi gələcək nəsillərə çatdırılmasına müstəsna töhfələr verir. Bu, həm tariximizin taleyüklü məqamlarının öyrənilməsi, həm də Heydər Əliyev irsinin tədqiq və təbliğ olunması üçün vacib əhəmiyyətə malikdir.

Fondun Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində sistemli fəaliyyəti isə Prezident İlham Əliyevin hücum diplomatiyası siyasətinə və informasiya müharibəsində dövlətin mövqelərinin möhkəmlənməsinə inamlı, qətiyyətli və təsirli dəstəkdir. Heydər Əliyev Fondu erməni yalanlarının ifşası istiqamətində məqsədyönlü iş görüb. Tarixi faktların və mövcud reallıqların diqqətə çatdırıldığı təkmil internet resurslarının yaradılması, müxtəlif dillərdə geniş auditoriyaya istiqamətlənmiş təbliğat aparılması, hər il bir sıra ölkələrdə Xocalı faciəsinə həsr olunan konfransların, tədbirlərin keçirilməsi və digər addımlar sistemli fəaliyyətin tərkib hissəsidir.

Erməni vandalizminin iç üzünün açılmasında və Xocalı faciəsinin soyqırımı kimi tanıdılmasında isə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının önəmli rolu var. Prezident İlham Əliyev bildirib ki, fondun fəaliyyəti nəticəsində Azərbaycan daha çox tanınır və məhz bu amil bizə İkinci Qarabağ müharibəsi dövründə kömək göstərdi: "Çünki Azərbaycan xalqı yaxşı bilir ki, o vaxt erməni lobbisi və onun havadarları Azərbaycan haqqında olmazın yalanlar uydurub media məkanına atmışlar. Ancaq uzun illər ərzində Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə fəaliyyəti və Azərbaycanın müasir, mütərəqqi dövlət kimi tanıdılması bu təbliğatı alt-üst etmişdir".





Milli mübarizəmiz hərb müstəvisində olduğu kimi, informasiya cəbhəsində də aparılır. Ona görə də bu istiqamətdə işlər ardıcıl olaraq - yeni dönəmin reallıqlarına və çağırışlarına uyğun davam etdirilir. İnformasiya müharibəsində Azərbaycanın mövqelərinin gücləndirilməsi üçün Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qarabağ Dirçəliş Fondunun həyata keçirdiyi "Karabakh.Center" layihəsi xüsusi əhəmiyyətə malikdir. Bu, qlobal müstəvidə mövcud reallıqlara obyektiv baxışın əhatə dairəsinin genişləndirilməsi üçün zəruridir.

Eyni zamanda Heydər Əliyev Fondu genişmiqyaslı quruculuq fəaliyyəti ilə xalqımızın ümumbəşəri dəyərlərə, milli, dini və mədəni irsə sonsuz hörmətini ifadə edir. Fondun dəstəyi ilə Azərbaycanın müxtəlif guşələrində, eləcə də respublikamızın hüdudlarından kənarda məscidlər, kilsələr, sinaqoqlar təmir-bərpa edilir, yenidən qurulur. Bərpa işlərinin dini mənsubiyyətindən asılı olmayaraq bütün abidələri əhatə etməsi Heydər Əliyev Fondunun beynəlmiləl missiyasını, Azərbaycan xalqının tolerant və multikultural mahiyyətini əks etdirir. Avropanın bir sıra ölkələrində tarixi, dini, mədəni abidələrin bərpası bu kontekstdə

ayrıca qeyd edilməlidir. Bununla yanaşı, bəşəriyyət üçün dəyərli əsərlərin qorunması, gələcək nəsillərə ötürülməsi istiqamətində işlərin görülməsi və digər addımlar Şərqlə Qərb arasında mənəvi körpü rolunu oynayan Azərbaycanın beynəlxalq miqyasda sivilizasiyalararası dialoqun inkişafına töhfəsidir, ölkəmizin humanitar sahədə ikitərəfli əlaqələrinin inkişafına müsbət təsir göstərir.

Yeni mərhələdə Heydər Əliyev Fondu yeni quruculuq missiyası ilə çıxış edir, şanlı, möhtəşəm və tarixi Zəfərimizin ictimai, mənəvi-siyasi və diplomatik müstəvidə möhkəmləndirilməsi ilə əlaqədar zəruri işlər görür. İşğaldan azad edilmiş ərazilərdə tarixi, dini abidələrimizin bərpası və inşası istiqamətində həyata keçirilən fəaliyyət bu kontekstdə xüsusi qeyd olunmalıdır. Azərbaycan xalqının öz keçmişinə sadiqliyi, gələcəyə inamlı baxışı, tarixi ənənələrə sahib çıxması və milli dəyərlər əsasında fəaliyyət göstərməsi, o cümlədən qurub yaratmaq, abad etmək əzmi bütün dünyaya nümayiş etdirilir.

Bütövlükdə Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun irəli sürdüyü təşəbbüslər və reallaşdırdığı layihələr cəmiyyətin yaradıcı və elmi-intellektual potensialının artırılmasına maddi, mənəvi və təşkilati dəstəyin göstərilməsi, milli-mənəvi dəyərlərin qorunması, gənc nəslin tarixi ənənələr və milli dəyərlər əsasında tərbiyə olunması, vətənpərvərliyin və milli həmrəyliyin gücləndirilməsi, xeyirxahlıq, humanizm kimi ümumbəşəri və ali dəyərlərin təbliğinin həyata keçirilməsi və digər istiqamətlərdə səmərəli nəticələrin əldə olunmasını təmin





edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir. Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır".

- Azərbaycanın müsbət beynəlxalq imicinin möhkəmləndirilməsi mühüm prioritetlərdəndir. Bunun üçün dövlət siyasəti ilə yanaşı, davamlı fərdi və ictimai təşəbbüslərin irəli sürülməsi faydalı, önəmli və zəruridir. Dövlətin beynəlxalq nüfuzunun qorunması və gücləndirilməsi üçün müxtəlif siyasi mexanizmlərdən istifadə olunur. Bu kontekstdə təsirli vasitələrdən biri də mədəniyyət diplomatiyasıdır.

Mehriban xanım Əliyevanın milli mədəniyyətimizin təbliği, mənəvi irsimizin qorunması, Azərbaycanın zəngin tarixi və mədəni mirasının dünya ictimaiyyətinə çatdırılması istiqamətində genişmiqyaslı fəaliyyəti bu baxımdan xüsusi əhəmiyyət daşıyır. 1995-ci ildə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə hazırda onun rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondunun, həmçinin 1996-cı ildə Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə Azərbaycan, ingilis və rus dillərində çap olunan "Azərbaycan - İrs" jurnalının təsis edilməsi, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə bir çox ölkədə xalqımızın milli-mənəvi dəyərlərinin, Azərbaycan xalqının zən-

gin mədəniyyət nümunələrinin tanıdılması ilə əlaqədar sərgilərin keçirilməsi kimi addımlar təkcə mədəniyyət hadisəsi deyil, eyni zamanda mənəvi-siyasi məzmuna və tarixi əhəmiyyətə malikdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə bir sıra ölkələrdən nüfuzlu sənət adamlarının, incəsənət xadimlərinin bir araya gəldiyi Qəbələ Beynəlxalq Musiqi Festivalının, eləcə də xalqımızın ənənəvi musiqi sənətinin dünya mədəni irsində layiqli yerini və rolunu nümayiş etdirən Beynəlxalq Muğam Festivalının keçirilməsi və digər addımlar Azərbaycanın beynəlxalq arenada təbliğinə geniş imkanlar yaradır. Qeyd edilənlərdən əlavə, UNESCO platformasından ölkəmizin müsbət və mütərəqqi simasının tanıdılmasında, zəngin mədəniyyətimizin təbliğində geniş istifadə olunur. Heydər Əliyev Fondunun prezidenti və UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın səmərəli fəaliyyətinin nəticəsində bu zamana qədər İçərişəhər, o cümlədən Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri, Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Həmçinin muğam və aşıq sənətimiz, "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti", "Dədə Qorqud irsi", Azərbaycan kəlağayı sənəti Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına salınıb. Həmçinin Azərbaycan UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına uğurla evsahibliyi edib. Eyni zamanda bir sıra ölkələrdə sərgilərin, mədəniyyət günlərinin keçirilməsi, görkəmli şəxsiyyətlərimizin abidələrinin ucaldılması fondun





Azərbaycanın zəngin mədəniyyətinin dünyada tanıdılması işinə töhfələridir.

Azərbaycanın mədəniyyət paytaxtı və Qarabağın tacı Şuşanın işğaldan azad olunmasından sonra "Xarıbülbül" festivalının, Vaqif Poeziya Günlərinin yenidən keçirilməsi də milli sərvətimiz olan mədəni irsimizin təbliğ və təqdim olunmasına yönələn faydalı təşəbbüslər və aşkar reallıqdır. Bu, əslində, diplomatiyanın fövqündə dayanan fəaliyyətdir;

Mehriban xanım Əliyevanın siyasi fəaliyyəti məzmun və mahiyyət etibarilə konkret hədəflərə istiqamətlənib və real nəticələr verir. İstiqamət və məqsəd bəllidir - dövlətçilik maraqlarının, xalqın mənafeyinin qorunması, milli həmrəyliyin gücləndirilməsi və s. Bu fəaliyyətin mühüm tərkib hissələrindən biri qurucusu Ümummilli Liderimiz Heydər Əliyev olan Yeni Azərbaycan Partiyası çərçivəsində görülən işlərdir. İnkaredilməz həqiqətdir ki, zəngin və şərəfli yol keçən, Azərbaycanın tərəqqisinə, milli məqsədlərin gerçəkləşdirilməsinə və strateji hədəflərə çatmasına layiqli töhfələr verən Yeni Azərbaycan Partiyasının tarixi müstəqil Azərbaycan dövlətinin inkişaf salnaməsidir. Partiyamızın nailiyyətləri xalq-lider birliyinin, ictimai-siyasi monolitliyin ifadəsi, Heydər Əliyev ideyaları üzərində təşəkkül tapan reallıq, Prezident İlham Əliyevin siyasətinin nəticəsidir.

Ümummilli Liderimizin siyasi mirası və milli dövlətçiliyin siyasi dayağı olan YAP bu günə qədər öz üzərinə düşən vəzifələri yerinə yetirib, tarixi təşəbbüslərə və mü-

vəffəqiyyətlərə imza atıb. Bu gün də xalqın mənafeyinə və dövlətin maraqlarına xidmət edən siyasi missiyasını uğurla davam etdirir. Başqa sözlə, Yeni Azərbaycan Partiyası inkişaf edir, islahatlar yolu ilə özünü yeniləyir. Xüsusilə də, partiyanın qurultaylarında qəbul edilən qərarlar həm təşkilati, həm də siyasi-ideoloji işin səmərəliliyinin artırılması, qarşıya qoyulan hədəflərin reallaşdırılması baxımından mühüm önəm daşıyır.

Xüsusi qeyd etmək lazımdır ki, Mehriban xanım Əliyevanın partiyanın 2013-cü ildə keçirilmiş V Qurultayında YAP Sədrinin müavini seçilməsi, 2021-ci il mart ayının 5-də baş tutmuş VII Qurultayında isə YAP Sədrinin birinci müavini təyin olunmasından sonra görülən işlər Yeni Azərbaycan Partiyasının ölkə daxilində və beynəlxalq aləmdə nüfuzunun daha da artmasını, yeni nailiyyətlər qazanmasını təmin edib;

Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixində imzaladığı sərəncama əsasən, Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması onun gördüyü işlərin real nəticəsidir. Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi səmərəli fəaliyyəti Azərbaycanın ardıcıl uğurlar əldə etməsini şərtləndirib, ölkəmizin qarşısında yeni perspektivlər açılıb. Bu, inkişafın yeni mərhələsinə qədəm qoymaq və gələcək hədəflərə doğru əmin addımlarla irəliləmək üçün önəmli zəmindir.

Birinci vitse-prezidentin təşəbbüsü ilə ötən müddət ərzində görülən işlər ölkəmizdə həyata keçirilən dövlət si-





yasətinin mərkəzində insan amilinin, vətəndaşın rifahının və mənafeyinin dayandığını, sosial ədalət prinsipinin əsas götürüldüyünü bir daha təsdiqləyir. Xüsusilə də məcburi köçkünlərə, qaçqınlara, şəhid ailələrinə, müharibə veteranlarına, qazilərə, aztəminatlı ailələrə, erməni vandalizmindən, müharibədən əziyyət çəkən digər kateqoriyadan olan insanlara dəstək göstərilməsi və bu kimi digər addımlar Mehriban xanım Əliyevanın öz vədinə - Vətənə, xalqa və dövlətə sədaqətlə xidmət sözünə əməl etdiyini növbəti dəfə sübuta yetirib. Bu gerçəkliklər onun humanizm və vətənpərvərlik prinsiplərinə əsaslanan çoxşaxəli fəaliyyətinin milli mənafelərin qorunmasına yönəldiyini göstərir.

Mehriban xanım Əliyeva "İnam və səmimiyyət olan yerdə yaradıcılıq əzmi xariqələr yaratmağa qadirdir", - deyə söyləyib. Bəli, Azərbaycanın birinci xanımı ölkə daxilində unikal layihələr reallaşdırdığı kimi, eyni inam və səmimiyyətlə Azərbaycandan kənarda da yaradıcılıq - quruculuq əzmi nümayiş etdirir, müstəsna mədəni-mənəvi, ictimai-siyasi və tarixi önəm daşıyan işlər görür, ilklərə və nailiyyətlərə imza atır.

Təsadüfi deyil ki, adı xeyirxahlıq, vətənpərvərlik anlayışları ilə assosiasiya olunan, milli və bəşəri dəyərlərə bağlılığı ilə fərqlənən, ictimai-siyasi obrazı nümunəvi xarakter daşıyan Mehriban xanım Əliyevanın fəaliyyəti təkcə ölkəmizdə deyil, beynəlxalq miqyasda da yüksək dəyərləndirilir. Müxtəlif mənbələrə nəzər saldıqda ayrı-ayrı dövlətlərin rəsmilərinin, nüfuzlu siyasətçilərin, tanınmış

ictimai xadimlərin, alimlərin, tədqiqatçıların Mehriban xanım Əliyevanın milli məzmunlu, qlobal əhəmiyyətli fəaliyyətini ifadə və təqdir edən fikirlərinə rast gəlirik.

Paralel olaraq bir çox mükafatlarla təltif olunması - Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeninə, həmçinin bir sıra dövlətlərin və təşkilatların nüfuzlu təltiflərinə layiq görülməsi Mehriban xanım Əliyevanın yüksək ideallara əsaslanan, mütərəqqi ideyaları və çağırışları özündə ehtiva edən, bəşəriyyətin təmənna və gözləntilərinə adekvat cavab verən fəaliyyətinin məzmun və mahiyyət etibarilə həm milli, həm də beynəlmiləl xarakter daşıdığını bir daha təsdiqləyir.

Şübhəsiz ki, dövlət adamı, siyasətçi, ictimai-siyasi xadim üçün ən böyük üstünlük ictimaiyyətin güclü dəstəyidir və bu dəstəyə söykənərək cəmiyyətin, dövlətin inamını, etimadını doğrultmaqdır. Mehriban xanım Əliyeva buna müvəffəq olub. Xalqın dərin rəğbəti, tükənməz sevgisi, sarsılmaz inamı və güclü etimadı mənəvi-siyasi sərvət kimi Mehriban xanım Əliyevaya fəaliyyətini inamla və əzmlə davam etdirməyə imkan və stimul verir - qalib dövlətin yeni zirvələr fəth etməsi, suverenliyimizin rəmzi, dövlətimizin güc, xalqımızın isə qürur mənbəyi olan üçrəngli bayrağımızın ən uca məqamda - müstəqillik və Qələbə zirvəsində əbədi dalğalanması üçün və daha güclü Azərbaycan naminə!































## XURAMAN MURADOVA:
## XİLASKARI DƏSTƏKLƏMƏK MİLLƏTİ DƏSTƏKLƏMƏK DEMƏKDİR!

**Müsahibim Türk Dünyası Beynəlxalq Elmlər Akademiyasının fəxri professoru, "Humay mükafatı laureatı, Türk dünyası "Altın yıldız" və "Onur" medallı, sahibkar iş xanımı, "Vip Milan" hospitalın təsisçi direktoru, "Vektor" Elmlər Akademiyasının fəxri professoru, AYB-nin və Türkiyə Yazarlar Birliyinin üzvü Xuraman xanım Muradovadır.**

**Salam, Xuraman xanım! Siz bütün sahibkarlıq və yaradıcılıq fəaliyyətinizdə həmişə dövləti və dövlətçiliyi dəstəkləmisiniz. 44 günlük Vətən müharibəsində və ondan sonrakı dövrlərdə də biz həmişə bunun şahidi olduq. Xahiş edirəm, bu ali məqsədinizi çoxminli oxuculara aydınlatın.**

- Təşəkkür edirəm. Sizi və bütün oxucularımızı salamlayıram! İlk öncə bir məqamı xüsusilə vurğulamaq istəyirəm ki, mənim ədəbi yaradıcılıq və sahibkarlıq fəaliyyətimdən daha öndə vətəndaşlıq mövqeyim dayanır. İllərin sınağından və təfəkkür süzgəcindən keçib gələn iki misra söyləmək istəyirəm sizə: Vətən daşı olmayandan... Olmaz ölkə vətəndaşı... Yəni mən söz adamı, düşüncə adamı, ictimai fikir adamı və iş adamı olmaqdan daha ön-

cə bu ölkənin vətəndaşıyam. Və 44 günlük müqəddəs Vətən savaşı ərəfəsində də, müharibədən öncəki və sonrakı dönəmlərdə də əlimdən gəldiyi, gücümün və imkanlarımın yetdiyi qədər vətəndaş borcumu yetirə yetirməyə çalışmışam. Müharibə günlərində cəbhə bölgəsində olan əsgərlərimizə ərzaq, qida, tibbi ləvazimat və digər lazımi ehtiyatları hazırlayıb yola salmaqla, rəhbərlik etdiyim "VİP Milan" hospitalımızda Vətənin azadlığı uğrunda düşünmədən canını – yeriyən ayağını, vuran qolunu, görən gözünün nurunu fəda edən igid oğullarımızın, qazi qardaşlarımızın müalicəsini öhdəmizə götürməklə dövlətimiz qarşısında, dövlətçiliyimiz qarşısında öz vətəndaşlıq missiyamı həyata keçirməyə çalışmışam.

**- Sizin yaradıcılığınızın çox böyük bir hissəsi Vətənə, torpağa və xalqa həsr olunub. Yaradıcılığınızda bunun qırmızı xətlə keçməsinin səbəbi nədir?**

- Həssas müşahidələriniz və yaradıcılığıma olan diqqətiniz üçün minnətdarlığımı bildirirəm. Bu, həqiqətən də belədir. Poeziyamın böyük əksəriyyətini Vətənimizə, torpağımıza həsr etdiyim şeirlərim təşkil edir. Çünki mənim bir insan kimi həyat qayəm budur ki, bizi yaradan Allaha, Allahdan sonra bizi yaradan valideynlərimizə borclu və mütəşəkkir olduğumuz qədər havasını udduğumuz, suyunu içdiyimiz, ayaq açıb gəzdiyimiz, qoynunda pərvazlandığımız bu torpağa, yurdumuza şükranla minnətdar olmalıyıq. Doğulduğu və yaşadığı coğrafiya insanın həya-





tında çox mühüm bir yer tutur. İlahinin təqdirinə sonsuz şükürlər ki, bizim də bəxtimizə, taleyimizə bu "Odlar yurdu"nda – İgid oğullar yetirən Ərənlər yurdunda – Od qoruyan "Odərlər yurdu"nda doğulmaq düşüb. Bu Vətənin masmavi dənizi də, laciverd səması da, al şəfəqli üfüqləri də, yaşıl çəməni də, min rəngə boyanan çiçəyi də yaradıcı təxəyyül üçün böyük material verir. Mən daxili təbiətim etibarilə, Allahın ehsan etdiyi bütün bu gözəllikləri – səhərin sübh çağı Günəşin doğmasını, əsr namazı vaxtı Günəşin qürub çağını, qaranlıq gecəmizi aydınlandıran Ayın bəmbəyaz işığını, çiçəyin rəngini, sözün sehrini duyan və qələmə alan, sözə - şeirə çevirən biriyəm.

Mənim rəhmətlik Atamın əsli, ata-babaları dilbər guşələrimizdən olan Laçın rayonundandır. Özüm isə Goranboyda doğulub böyümüşəm. Və mən tərcümeyi-halımdan bəhs edəndə hər yerdə fəxrlə deyirəm ki, mən kənd qızıyam. Gözümü kənddə açmışam. Xəmirimi, mayamı halallıqdan yoğuran Atamın zəhmətsevərliyi, sadə, saf, ismətli, məsum baxışlı Anamın ailəcanlılığı, övladlarına bağlılığı gözümün önündən getmir. Mən halallığı həyat qayəsinə çevirən valideynlərimin timsalında zəhməti sevmişəm. Görmüşəm ki, torpağa əyilmədən ucalmaq mümkünsüzdür. Torpağa əyiləni, torpağa təzim edəni Allah ruzi, bərəkətiylə ucaldar. Xarakterimdəki zəhmətkeşlik də, əzmkarlıq da, iradəli olmağım da düşünürəm ki, bununla bağlıdır. Bu mənada, "Can Laçın"ım , doğulub boya-başa çatdığım "Goranboyum" və bütövlükdə Azərbay-

canım, doğma məmləkətim, ana torpağım, ata yurdum mənim bədii yaradıcılığımda əsas tərənnüm obyektimdir.

**- Siz hələ sahibkarlığa başladığınız ilk illərdə ulu öndər Heydər Əliyevin ən böyük təbliğatçılarından biri olubsunuz. Ulu Öndərə sevginiz haradan qaynaqlanıb?**

- Mən 1982-1988-ci illərdə Azərbaycan Memarlıq Universitetində ali təhsil alırdım. Bizim tələbəlik illərimiz ölkəmizin həyatının ən keşməkeşli dönəmlərinə təsadüf edib. O zaman ümumilli liderimiz Heydər Əliyev SSRİ Nazirlər Kabinetinin birinci müavini idi. Azərbaycan hər nə qədər Sovetlər birliyinin tərkibində olsa da, o cür çətin dövrdə belə Heydər Əliyev Azərbaycanın intibahına yönəlik qərarları dəstəkləməyə can atırdı. Bütün bu ictimai-siyasi proseslər bizim gözümüz önündə reallaşdığından dolayı gənclik illərimizdən mən Heydər Əliyevin uğurlu və uzaqgörən siyasətini həmişə alqışlamış və təbliğ etmişəm. Dildə deyilməsi asan olan 70 il qədərində böyük bir zaman kəsimində bu torpaqda kök salmış imperiyanı söküb atmaq və bu torpaqlara milli ruh, can vermək asan məsələ deyildi. Heydər Əliyev bunun öhdəsindən gəldi. Müstəqil Azərbaycanımızın qurucu memarı oldu və şərəflə yaşadığı ömrün yekununda bizə bağımsız bir məmləkət ərməğan edərək Haqq dünyasına qovuşdu.

**Bu il Ulu Öndərin anadan olmasının 100 illiyi ilə əlaqədar bir neçə dövlət tədbirlərində, qurultaylarda iştirak etdim. Və ümumilli liderimizin - ürəklərdə ölümsüzləşən o böyük şəxsiyyətin necə rəhmətlə anıldığını müşahidə etdim.**





Məhəmməd Hadinin bir misrasını həmişə xatırlayıram. Ömrü boyu özgür bir dövlət, hürriyyət eşqi ilə yaşayan şair yazmışdı ki: "Yox millətimin imzası imzalar içində..."

Bu gün uca Allaha həmd olsun ki, cənnətməkan Heydər Əliyevin siyasi iradəsi hesabına biz ürəklə deyə bilirik ki: "Var millətimin imzası imzalar içində!"

Allah ürəklərimizdə yaşayan ulu Öndərə və əziz Zərifə xanıma qəni-qəni rəhmət eləsin!

**2003-cü ildə cənab İlham Əliyevin prezidentliyə namizədliyi veriləndə siz onun ən böyük təbliğatçılarından biri olubsunuz. Niyə məhz İlham Əliyevi prezident görmək istəyirdiniz?**

İllərin sınağından çıxmış bir məsəl var. Deyirlər ki, "Sağlam torpaqdan həmişə sağlam toxumlar göyərər. İlham Əliyev sağlam təməlləri olan mükəmməl bir ailədə - görkəmli alim, savadlı həkim, əsl ziyalı xanım olan Zərifə xanımla ulu Öndərin birgə verdiyi mükəmməl tərbiyə ilə yetişib, kamil bir xarakterdə formalaşıb. Zərifə xanım elə yüksək etikası, əxlaqi keyfiyyətləri olan bir insan olub ki, onun həkim kimi məslək etikası bütün SSRİ miqyasında müzakirələrə mövzu olarmış. Mərhum Ulu Öndərimizin bilik dairəsi, siyasi iradəsi və yüksək idarəçilik bacarığı isə o evdə, o ocaqda böyüyən insanın ilk gənclik illərindən

püxtələməsinə və liderlik keyfiyyətlərinə yiyələnməsinə səbəb olub.

Məhəmmədhüseyn Şəhriyarın gözəl bir sözü var. Deyir ki: Şair ola bilməzsən, anan doğmasa şair... Yəni, insan anadan şair doğulmalıdır. Liderlik də elə bir ali keyfiyyətdir ki, mütləq mənada insanın bioloji təməlində, qanında, canında bu ilahi fitrət olmalıdır.

Cənab İlham Əliyev 20 il əvvəl 2003-cü ilin oktyabrın 15-də ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olaraq millətimizin önündə gedən bir Lider kimi, Bayraqdar kimi müqəddəs bir yola çıxdı. Bu keşməkeşli yolda gənc olmasına baxmayaraq O, bütün çətinliklərə mərdliklə sinə gərdi və parlaq əməlləri ilə xalqımızın yüksək etimadını qazanmağı bacardı.

Onun prezident seçilməsi ilə ölkəmizin inkişafında yeni bir mərhələ başlandı. 1993-cü ildə Heydər Əliyev siyasi rəhbərliyə qayıdandan sonra müstəqilliyini itirmək, parçalanmaq təhlükəsindən xilas olan Azərbaycan inkişaf yoluna çıxdı. Heydər Əliyev siyasi kursunun diktə etdiyi sülh, sabitlik və tərəqqi yolunun alternativsizliyini bütün dünya gördü. Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız da və o xalqın nümayəndəsi – bəndəniz Xuraman Muradova da 2003-cü ildə keçirilən seçkilərdə ulu Öndərin layiqli davamçısı İlham Əliyevi dəstəkləyərək Prezident seçdi.

20 illik fəaliyyəti dövründə Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli





maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. Xalqın öz liderinə inam və etimadı son dərəcədə artdı. Məhz buna görə də 2008-ci, 2013-cü və 2018-ci illərdə keçirilən prezident seçkilərində də İlham Əliyev yenidən inamlı qələbə qazandı.

42 yaşında hakimiyyətə gələn cənab prezidentimiz gəncliyini, şərəfli ömrünün 20 ilini ölkəmizin, millətimizin rifahına həsr etdi. Və atdığı hər addımla, əməli ilə sübut etdi ki, Onu sevdiyimiz və seçdiyimiz üçün yanılmamışıq.

**Siz öz sahibkarlıq işiniz və yaradıcılığınızla bağlı tez-tez xarici səfərlərdə olursunuz. Orada bizim prezidentimizə qarşı münasibət necədir?**

- Bu sualınıza cavab verməklə mən təkcə prezidentimizə olan münasibəti deyil, həm də kənardan baxanda Azərbaycanımızın necə göründüyü mənzərəni sizin nəzərinizdə canlandırmaq istəyirəm. Çünki müzəffər bir ölkə, bağımsız, müstəqil Azərbaycan həm də müzəffər Ali Baş Komandan deməkdir. Və böyük qürur hissi ilə deməliyəm ki, qardaş Türkiyəmizdə, eləcə də ədəbi körpülərimiz olan qardaş Özbəkistanda, Qazaxıstanda, Qırğızıstanda Azərbaycana – onun müzəffər Oğluna - Cənab İlham Əliyev şəxsiyyətinə inanılmaz fiziki gücə və iradəyə sahib, son dərəcə savadlı, mədəni, alicənab, bilgiləri ilə bütün dünyaya meydan oxuyan Böyük Fateh kimi, Şuşa qalasının xilaskarı kimi, Azərbaycan Silahlı Qüvvələrinin adının haqqını verən Ali Baş Komandanı kimi və bütün dünyanın böyük

diplomatiya öyrəndiyi Ulu öndərin uca Türk millətinə qiymətli mənəvi mirası kimi dərin sevgi və rəğbətlə yanaşırlar.

Elə ötən ilin oktyabrında iştirakçısı olduğum uluslararası festivalda, Türkiyənin Elazığ şəhərində keçirilən "Beynəlxalq Xəzər şeir axşamları"nda uşaqdan böyüyə hər bir türk insanının Müzəffər Ali Baş Komandanımıza olan sevgi və heyranlığını öz gözlərimlə müşahidə etdim.

**Bir sıra xarici ölkələrdə bizim üzdəniraq blogerlərimiz, jurnalistlərimiz və özlərini siyasətçi adlandıranlarımız dönüklərimiz həm ölkəmiz və həm də prezidentimiz haqqında çoxlu hədyanlar yazırlar və deyirlər. Buna sizin bir ziyalı kimi münasibətiniz necədir?**

- Ata-babalarımızın gözəl bir sözü var: Boş araba bərk səs salar. Ağac bar verdikcə başını aşağı əyər. İnsan da ağac kimidir. İnsanın da içi dolu olduqca, mənəvi cəhətdən zənginləşdikcə, kamilləşdikcə boş hay-küydən uzaq olar. Dilinə hədyan söz gətirməz.

Bir insan görmək istəməyəndən daha kor, eşitmək istəməyəndən daha artıq kar ola bilməz. Qərbin köynəyinə sığınıb ölkədə baş verən bu qədər çiçəklənməni, renesansı, intibahı görməzdən, eşitməzdən gələnlərin məqsədi-məramı artıq hamıya bəllidir. Beləları haqqında ən gözəl fikir heç bir mövqe sərgiləməməkdir.

Bizim ölkəmizə bütün dünyanın diqqət mərkəzində olan, həm siyasi xarizması, həm intellekti, həm yüksək dil





bilgiləri, həm hərtərəfli idarəçilik qabiliyyəti olan İlham Əliyev kimi ideal bir şəxsiyyət rəhbərlik edir. Çox da uzağa getmədən, nəzərlərinizi 44 günlük Vətən müharibəsi dönəminə yönəltmək istəyirəm. Cənab Ali Baş Komandan Almaniyanın ARD kanalına müsahibə verirdi. Həmin müsahibə aparanın isə qərəzli mövqeyi verdiyi hər bir sualdan açıq-aşkar görünürdü. Birdən o cənab prezidentə dedi ki, niyə Qarabağ Azərbaycan üçün maraqlıdır? Orda resurslar olduğuna görə yoxsa Qarabağ hər hansı rəmzi məna daşıyır?

O zaman Cənab Ali Baş Komandan həmin jurnalistə çox tutarlı bir cavab verdi. Dedi ki, Elzas və Lataringe sizin üçün niyə önəmlidir? Bavariya yaxud Reyn-Vestfaliya sizin üçün niyə önəmlidir?? Qarabağ da, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan ərazimizdir. Bu, resurs məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Neftimiz, yanar qaz və digər təbii sərvətimiz Bakıdadır. Amma Qarabağ ədalət məsələsidir, milli qürur məsələsidir, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik – deyə cavab vermişdi müzəffər Ali Baş Komandan.

Hətta mən deyərdim ki, cənab prezidentin bu mükəmməl cavabı hədyan dezinformasiyalar yayan "Human Rights Watch" və "Amnesty International" kimi qərəzli,

agentliklərin, həqiqətləri görməyə kor olan Qərbin üzünə tərs şapalaq kimi dəymişdi.

Yəni, İlham Əliyev elə bir kamil düşüncə və siyasi iradə sahibidir ki, 200 illik bir torpaq iddiasını, bitməyən savaşı 20 ilə durdura bildi. Bu böyüklükdə ictimai-siyasi fəaliyyətləri, bu fədakarlıqları görə bilməyənlərə nə desən də, eşitməyəcəklər. Ona görə də Alimin nadana ən gözəl cavabı susmaqdır.

**- 2024-cü ilin 7 fevral tarixində prezident seçkiləridir. Siz hər söhbətinizdə və çıxışlarınızda deyirsiniz, yazırsınız ki, məhz İlham Əliyevin prezident olmasını dəstəkləyəcəksiniz. Niyə məhz cənab İlham Əliyevi dəstəkləyəcəksiniz?**

- 42 yaşında ölkəmizin ən ali vəzifəsinə seçilən cənab İlham Əliyev, ötən 20 il içində xalqımıza qələbələr, zəfərlər, uğurlar yaşatdı. Bizi uğursuzluq zolağından çıxaran Dahi Liderimiz Ata vəsiyyətinə əməl edərək Ulu Öndərin müqəddəs ruhunu şad etdi, gələcək nəsillərə yol göstərdi, üfüq və qanad verdi... O, xalqını, xalqı da onu bağrına basdı.

İlham Əliyev müdrik siyasəti ilə bütün dünyaya bəyan etdi ki, O, mənfur qonşularımızın 200 illik torpaq iddialarını 20 il düşünüb-daşındı və 44 günün içində sülh yolu ilə tamamladı, uzaqgörən siyasəti, ağlı, müdrikliyi, cəsarəti, dünyagörüşü, mərhəməti, insansevərliyi ilə hər bir azərbaycanlının prezidenti olmağı bacardı...





Əsrə bərabər 20 ilin zirvəsində işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yarandı. Tarixə nəzər salsaq görərik ki, ötən 20 ildə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər həyata keçirildi. Bunun nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Məhz bu ordu öz Ali Baş Komandanının qüdrətli sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq qurtuluş savaşını başladı və dünyanı heyrətə salan hərbi uğurlara imza atdı. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olundu.

Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın noyabrın 8-də işğaldan azad edilməsi tariximizə şanlı Zəfər Günü kimi yazıldı. Bundan iki gün sonra isə işğalçı Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini Azərbaycan özü icra etdi.

Dünya hərb tarixində xüsusi yer tutan bu müharibə Prezident İlham Əliyevin daha bir keyfiyyətini – sərkərdəlik məharətini üzə çıxardı. O, əməliyyatlara şəxsən nəzarət

edir, döyüşən orduya tapşırıqları birbaşa özü verirdi. Qələbəni şərtləndirən mühüm amillərdən biri də Azərbaycan Prezidentinin diplomatiya müstəvisində çevik siyasəti oldu. Müharibə dövründə dövlətimizin başçısı İlham Əliyev xarici jurnalistlərə, xarici KİV-lərə 30-dan çox müsahibə verdi ki, bu da münaqişə ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynadı.

Vətən müharibəsində qazanılmış parlaq Qələbə həm də həyatın bütün sahələrində əldə olunmuş uğurlarla, dinamik inkişafla bilavasitə bağlıdır. İlk növbədə, güclü və qüdrətli dövlət yaratmaq lazım gəlirdi. Ötən 20 ilə nəzər salsaq görərik ki, dövlətimizin başçısı xalqa verdiyi bütün vədləri yerinə yetirib. Bu müddət ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb.

Bunun parlaq ifadəsidir ki, 2020-ci ilin Qalib Azərbaycanına, 2023-cü ilin öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycanına inanan – bu günləri görən müdrik xalqımız, 2003-cü ildə olduğu kimi, 2008, 2013, 2018-ci illərdə də İlham Əliyevə etimad göstərdi, səs verdi. 2023-cü ilin bu günlərində də yeganə Prezident olaraq xalq yenə də onu görmək istəyir, Ona etimad göstərir. Xalqın müdrikliyi, Prezidentin xalqcanlılığı və öz sözünün sahibi, içdiyi andına sadiqliyi, əhdinə vəfadarlığı bu günkü parlaq tarixi faktlar işığında çox möhtəşəm görünür.

İlham Əliyevin prezidentliyi dönəmində çəkilən yollar, qazılan tunellər, salınan körpülər... Azərbaycandan keçən yaxud Azərbaycandan başlayan böyük nəqliyyat xətləri, bir sözlə, infrastruktur layihələri qeyri-adi dərəcədə həyati və fövqəladə dərəcədə önəmli olub, ölkəmizə üstünlüklər gətirdi. Dövlət başçımızın sarsılmaz siyasi iradəsi, qəbul edilmiş proqramlar, alternativlərin ən yaxşısı olan yol xəritələri nəhayətdə öz bəhrəsini verdi – bizi böyük Zəfərə götürdü...





Ötən illər ərzində Azərbaycan Prezidenti xarici münasibətlərdə dövlətimizi ləyaqətlə təmsil etdi. İlham Əliyev hər xarici səfərində, hər beynəlxalq platformada xalqımıza qürur yaşatdı, bu gün də qürur yaşadır, gələcəkdə də qürurumuz olacaq.

O, Azərbaycanın dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, eləcə də, respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə ləyaqətlə əməl edilməsinin təminatçısı olduğunu əməldə parlaq şəkildə sübut etdi.

Prezident Ali Baş Komandan olaraq, Silahlı Qüvvələrimizin qüdrət qazanması, istənilən tapşırığı qüsursuz yerinə yetirməsi üçün var gücü ilə çalışdı, çalışır və bu yolda yürüyənlərə örnəkdir.

Ötən illərdə dövlət büdcəsində hərbi xərclərin çəkisi xüsusi şəkildə artırılaraq elə səviyyəyə çatdırıldı ki, işğalçı dövlətin ümumi büdcəsi ilə müqayisə olundu. Azərbaycan Respublikasının hərbi doktrinasını ali qanunvericilik orqanına təqdim edən Prezident, dövlətin həmçinin çox vacib sosial-iqtisadi proqramlarını təsdiq etdi, mərkəzi və yerli icra hakimiyyəti orqanlarını yeni çağırışlara uyğun dizayn etdi.

Heç təsadüfi deyil ki, 44 günlük müharibədən sonra da Orduya ayrılan vəsaitlər azaldılmadı – daha da artırıldı və bu həyati qərarın nə dərəcədə effektiv olduğu göz qabağındadır: ərazi bütövlüyümüz və Qarabağda dövlət suverenliyimiz tam bərpa olundu!

200 illik bir torpaq iddiasını, bitməyən savaşı 20 ilə durdura bilən dövlət başçısının adı daim könlümüzdə, qələmimizdə, kitabımızdadır! Başı ucaltdığı üçrəngli bayrağımız kimi daim uca olsun! Onun Azərbaycan üçün etdiyi fədakarlıqları unutmayan xalqımız həmişə Ali Baş Komandamızın "Dəmir Yumruğ"unun ətrafında sıx birləşəcək və Onu dəstəkləyəcək.

**Bu seçkilərdən sonra yəqin ki, Azərbaycanın daha da çiçəklənməsi və daha çox inkişafı dövrü başlayacaq. Bununla bağlı bir sahibkar və yaradıcı insan kimi hansı təklifləri vermək istərdiniz?**

- Azərbaycan artıq böyük bir çiçəklənmə və inkişaf mərhələsindədir. Artıq 4 ildir ki, işğaldan azad olunmuş Qarabağda əsaslı quruculuq işləri tam sürətlə davam edir. Erməni vandalizminin qurbanı olan tarixi abidələrimiz bərpa olunur, 30 il müddətində daşı-daş üstdə qalmayan şəhərlər yenidən qurulur. Prezident İlham Əliyevin liderliyi və uğurlu siyasəti, Qarabağ münaqisəsi ilə əldə edilmiş zəfər ilə birlikdə Azərbaycanın dinamik inkişafında və regional stabilliyində bir dönü° nöqtəsi təşkil edir. İnanırıq ki, Prezidentimiz öz ali missiyasını bundan sonra da uğur-





la davam etdirəcək.Qarabağda görülən genişmiqyaslı quruculuq işlərinin, həyata keçirilən tədbirlərin sürətlə aparılması bu qənaətə gəlməyə əsas verir ki, Azərbaycanın qələbəsi nəticəsində regionda yaranan yeni reallıqlar ölkəmiz və bölgə üçün yaxşı perspektivlər vəd edir. Cənab İlham Əliyevin vurğuladığı kimi, "Biz tezliklə doğma Qarabağımızı cənnətə çevirəcəyik". Mən həmişə Ali Baş Komandanımızın siyasi kursunu əsgər kimi dəstəkləyən bir insan kimi demək istəyirəm ki, bundan sonra da "Dəmir yumruğ"un ətrafında sıx birləşəcəyik. İstər ölkə paytaxtında, istər regionlarda, istər yeni həyat işartıları qayıdan Qarabağımızda tibbi, mədəni-sosial sahədə bütün quruculuq işlərində biz də öz töhfələrimizi verəcəyik, inşallah!

Allah Azərbaycanımızı qorusun! Allah xalqımızı, millətimizi, dövlətimizi, Ali Baş Komandanımızı və bizim əzizimiz, dəyərli bacımız, birinci vitse-prezidentimiz Mehriban xanımı və onun övladlarını, nəvələrini qorusun! Allah ölkəmizə əmin-amanlıq bəxş edən Ali Baş Komandanımızı bu xalqa gözüdolusu versin! Allah dövlətimizi, dövlətçiliyimizi, dövlət başçımızı qorusun! Amin inşAllah!

*Müsahibəni apardı: Ağalar İdrisoğlu*
*Əməkdar incəsənət xadimi*
*23 yanvar 2024-cü il*

## ÜRƏKLƏRDƏ ÖLÜMSÜZLƏŞƏN ÖNDƏR ŞƏXSİYYƏT...

*Ümummilli lider, ulu öndər*
*Heydər Əlirza oğlu Əliyevin*
*unudulmaz əziz xatirəsinə ithaf edirəm...*

Tarixdə ölkəsinin ən çətin anlarında həyatları bahasına olsa belə dövləti qoruyub saxlayan böyük şəxsiyyətlər olmuşdur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev XX əsr Azərbaycan tarixində milli müstəqillik ideyasını praktik olaraq gerçəkləşdirmiş fenomenal şəxsiyyətdir. O deyirdi ki: "Mənim əsas silahım sözdür". Bu silah sayəsində Ulu Öndər insanlara özlərinə güvənməyi öyrətdi və xalqı inandırdı ki, Azərbaycanın gələcəyi də, onun sağlam səhiyyəsi də, təhsili də, iqtisadiyyatı və mədəniyyəti də öz əlindədir. Heydər Əliyevin sülhməramlı daxili və xarici siyasəti sayəsində bu gün ölkəmiz bütün dünyada tanınır. Həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş dahi şəxsiyyətin vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz Heydər Əliyevin nəhəng tarixi xidmətləridir. Təsadüfi deyil ki, Ulu Öndərin fəaliyyəti öz miqyası və əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxıb. Ən nüfuzlu dövlət başçıları, politoloqlar tərəfindən dəfələrlə bəyan edildiyi kimi, Azərbaycanın və böyük türk dünyasının dahi oğlu Heydər Əliyev zəmanəmizin ən yüksək zirvəsində duran tanınmış siyasi xadimlər sırasında öz layiqli yerini tutub. Xalqımızın yaddaşında yaradıcı, qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illəri yaddaşlarda təkcə iqtisadi yüksəliş, təsərrüfatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, həm də elmin, təhsilin, mənəviyyatın, mədəniyyətin misilsiz tərəqqisi illəri kimi qalıb. Məhz həmin dövrdə gələcək müstəqilliyimizin təməl daşları qoyulub, iqtisadi, sosial və mədəni potensialı formalaşıb. 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində köklü islahatlar aparılmış və dəyişikliklər baş vermişdir. Bu nəhəng işlər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Heydər Əliyev fenomeninin ölkəyə uzunmüddətli rəhbərliyinin ən mühüm göstəricilərindən biri də azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsidir. Ulu Öndərin vətənpərvər

fəaliyyətinin nəticəsi olaraq respublikada milli ruhlu ziyalı təbəqəsi formalaşmışdır. Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik əldə edəcək respublikamızın gələcəyinə hesablanmış digər məqsədyönlü addımları ilə özünün Ümummilli Lider obrazını yaratmış, tarix isə onun bu statusunu bütün mərhələlərdə qorumuşdur. İlk növbədə, ötən əsrin 60-cı illərinədək aqrar ölkə kimi tanınan və yeganə sənaye mənbəyi neft olan Azərbaycan qısa müddət ərzində yüngül və ağır sənaye respublikasına çevrildi. Bir-birinin ardınca zavod və fabriklər istifadəyə verildi. Nəticədə həm respublikanın iqtisadi imkanları artdı, eyni zamanda yaradılmış yeni işlər əsasında insanların rifah halı daha da yaxşılaşdı. Xalqımızın döyüş ruhunun yaşadılmasında və gələcəkdə ordu quruculuğunun inkişaf etdirilməsində mühüm rol oynayan Cəmşid Naxçıvanski adına Hərbi Məktəb fəaliyyətə başladı. Respublikamız müstəqillik əldə etdikdən sonra hərbi liseyin məzunları ordumuzun yaranmasında, vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə ön cəbhədə oldular. Qarabağ döyüşlərində vuruşan Azərbaycan zabitlərinin 70 faizdən çoxu həmin liseyin yetirmələridir. İndi dünya analitiklərinin böyük önəm verdiyi mədəniyyətin yayılması siyasətini Heydər Əliyev hələ sovet dövründə özünəməxsus tərzdə həyata keçirirdi. Çünki dahi siyasətçi Heydər Əliyev Azərbaycanı dünyada





məhz milli dəyərləri, mənəvi tarixi, mədəniyyət özəlliyi ilə tanıdırdı. Məhz onun təşəbbüsü ilə ölkənin tanınmış musiqiçiləri, şairləri, yazıçıları, müğənniləri, bəstəkarları dünyanın ayrı-ayrı ölkələrində çıxış edirdilər. Əlbəttə ki, burada siyasi məqam da var idi – o da Azərbaycanı dünya ölkələri sırasına yüksəltmək idi ... Heydər Əliyevin ölkəyə rəhbərliyi dövrü tarixə siyasi, sosial-iqtisadi və mədəni yüksəliş dövrü kimi daxil olaraq xalqın milli mənlik şüurunun, müstəqillik ideallarının oyanışına güclü təkan vermişdir. Ulu Öndər hələ o dövrlərdən milli inkişafın yeganə yolunu insanların yüksək təhsil almasında, maariflənməsində görmüş, respublikada elmin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. O, yaxşı bilirdi ki, cəmiyyətin tərəqqisinə, elmin, mədəniyyətin inkişafına təsir göstərən ən qüdrətli vasitələrdən biri də təhsildir. Heydər Əliyev şəxsiyyətinin böyüklüyü məhz onda idi ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intellektual və elitar təbəqənin formalaşmasına çalışmışdır. Təsadüfi deyildir ki, 1969-1982-ci illər həm də Azərbaycan elminin, təhsilinin intibah dövrü kimi xatırlanır. Heydər Əliyev öz fəaliyyətində və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni, mütərəqqi nailiyyətlərindən faydalanmış, cəmiyyətin inkişafını elmdə, maariflənmədə görmüşdür. Ulu Öndər ötən əsrin 70-80-ci illərində kasıb və imkansız ailələrin övladlarının respublikada və onun hüdudlarından kənarda yüksək təhsil almasına, ixtisaslı kadr kimi yetişməsinə hər cür şərait yaradırdı. Məlum olduğu kimi, müasir dövrdə qa-

dınların kişilərlə bərabər hüquqa malik olması, yüksək dövlət vəzifələrində çalışması, təhsil alması olduqca vacibdir. Əks təqdirdə qadının idarəetmədə çalışması mümkün deyil. Hələ 1974-cü ildə "Azərbaycan qadını" jurnalının 50 illik yubiley təntənəsində Ulu Öndər Heydər Əliyev demişdi: "Biz çalışmalıyıq ki, ali məktəblərdə və texnikumlarda daha çox qadın təhsil alsın, elmi fəaliyyətlə məşğul olsun. Xüsusən kənddə qadınlar və uşaqlar arasında bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi problemlərinə biz diqqətimizi xeyli artırmalıyıq". Heydər Əliyev Azərbaycanla, onun tarixi və bu günü ilə bağlı biliklərin tədrisinə böyük önəm verir və bunu vətənpərvərlik tərbiyəsinin ən mühüm amili hesab edirdi. Bununla əlaqədar Heydər Əliyev demişdir: "...Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə milli təhsil alaraq, öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə, o, həqiqi vətəndaş ola bilməz. Əgər bunu bilməsə, o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə, o, millətinə olan münasibəti ilə istənilən səviyyədə fəxr edə bilməz". Ulu Öndərin bu gün də yaşamaqda olan ideya-siyasi konsepsiyasına münasibətimizi təkcə iftixar hissi keçirməklə deyil, həm də bu ideya dünyasını öyrənmək, tədqiq etmək və həyata keçirməklə ifadə etməliyik. Əsas məsələ bu ideyalara sahib çıxan yeni nəslin yetişdirilməsidir. Tarixi təcrübə təsdiqləyir ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından daha ağrılı və çətin prosesdir. Belə bir ziddiyyətli və mürəkkəb mərhələdə dövlətin xilası məhz xarizmatik





liderlərdən asılı olur. 1991-ci ildə Azərbaycan özünün dövlət müstəqilliyini elan etsə də, bu, əslində, 1993-cü ilin ortalarına qədər formal xarakter daşımışdır. Heydər Əliyevin 1993-cü ilin oktyabrında dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi daha da sürətlənmişdir. Ümummilli Lider ilk növbədə ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir. Bütün bunlar həmçinin xalqın öz liderinə inamının, xalq-iqtidar birliyinin nəticəsi idi. Dövlət çevrilişlərinin qarşısı alınmış, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Heydər Əliyev bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratmışdır. Ulu Öndər qısa müddətdə özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə meydan açan, dövlətsizləşdirməni özündə ehtiva edən, sosialyönümlü mahiyyət daşıyan, habelə xarici iqtisadi əla-

qələrin gücləndirilməsi və münbit biznes mühitinin formalaşdırılması yolu ilə ölkəyə investisiya axınını stimullaşdıran liberal inkişaf modelinin praktik surətdə gerçəkləşdirilməsinə nail olmuşdur. "Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması, bazar iqtisadiyyatı və sahibkarlığın inkişafıdır" - deyən Heydər Əliyev demokratik düşüncə və həyat tərzinin bütün dünyada diktə etdiyi bu meyarlara hər zaman sadiqlik göstərmiş, milli inkişaf naminə bu yolun alternativsizliyi fikrinin ictimai rəyə aşılanmasına nail olmuşdur. Ulu Öndər mərkəzi planlaşdırma və bölgü sistemindən sərbəst bazar münasibətlərinə əsaslanan iqtisadi modelə keçid prosesinin aztəminatlı təbəqənin maraqlarına toxunmaması üçün dövlət büdcəsində sosial müdafiə tədbirlərinə geniş yer ayrılmasını da təmin etmişdir. Böyük siyasi xadim Heydər Əliyev hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü çıxışlarında hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin müntəzəm surətdə artırılmasının əsas təşəbbüskarı kimi çıxış etmişdir. Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. Azərbaycan ilk dəfə olaraq insan





hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Demokratik tələblərə tamamilə cavab verən bu ali sənəd müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixilik qazanmışdır. 1995-ci ildə parlamentə keçirilən ilk seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açmışdır. Bu hadisə dövlət müstəqilliyinin prioritet istiqamətlərini müəyyənləşdirmək və həyata keçirmək yolunda əsas istinad mənbəyi rolunu oynamışdır. Bununla da Azərbaycanın dünya dövlətləri sırasında özünə layiqli yer tutması, beynəlxalq münasibətlərin subyektinə çevrilməsi istiqamətində ardıcıl fəaliyyətin əsası qoyulmuşdur. 1995-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Ölkənin insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri də BMT ilə Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum olmuşdur. Həmin memoranduma əsasən BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir. 1998-ci il fevralın 22-də Ümummilli Lider Heydər Əliyev "İnsan və

vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalamış, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih şəkildə müəyyən edilmişdir. Bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il iyulun 18-də isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur. Dövlət proqramına əsasən Azərbaycanın qoşulduğu konvensiyalara və qəbul etdiyi qanunvericilik aktlarına, eyni zamanda Konstitusiyanın müddəalarından irəli gələn tələblərə müvafiq olaraq insan hüquqlarının müdafiəsi sahəsində görülən işlərin səmərəliliyi daha da artırılmışdır. Ulu Öndərin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərara imza atan ilk ölkə olmuşdur. Yüksək humanizmin və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, 2001-ci il yanvarın 25-də müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Ulu Öndərin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərinin həllinə yönəlmişdir. İnamla deyə bilərik ki, bu siyasət 2003-cü ilin oktyabrından Heydər Əliyev siyasi kursunun ən layiqli





davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilir. Ulu Öndər Heydər Əliyevin demokratik dövlətçilik strategiyasını ləyaqətlə davam etdirən Azərbaycan Prezidenti müəyyənləşdirilmiş möhkəm ənənələr üzərində özü də yeni bir dövlətçilik məktəbinin banisinə çevrilmişdir. Prezident İlham Əliyev respublikamızı uğurlu inkişaf yoluna çıxarmaqla Cənubi Qafqaz bölgəsində həyata keçirilən qlobal enerji, kommunikasiya layihələrinin başlıca təminatçısına çevrilmişdir. Xalqa layiqli xidmət andını əməli işi ilə doğrultmuş dövlət başçısı Azərbaycanın iqtisadi inkişaf prioritetlərini dəqiq müəyyənləşdirmiş, hər bir vətəndaşın maraq və mənafeyinin yüksək səviyyədə təminatına yönəlmiş demokratiya kursunu inamla davam etdirmişdir. Respublikamız hazırda inkişafının elə mərhələsindədir ki, qazanılmış makroiqtisadi nailiyyətlər cəmiyyət həyatının ən müxtəlif sahələrində tərəqqi və intibaha, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğuna xidmət edən, hər bir vətəndaşın həyatında kardinal dəyişikliklərlə müşayiət olunan islahatları əzmlə gerçəkləşdirmək imkanı yaradır. Prezident İlham Əliyevin rəhbərliyi ilə inamla irəliləyərək qlobal enerji və kommunikasiya layihələrinin mərkəzinə çevrilən, ümumi daxili məhsulun artım tempinə görə dünyanın lider dövlətləri sırasında yer tutan respublikamızda xalqın inamlı sabahı baxımından strateji əhəmiyyət daşıyan demokratikləşmə prosesinin sürətləndirilməsi xüsusi diqqət mərkəzindədir.

Milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti milli dövlətçilikdir.

Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli mənəvi dəyərlərin qorunmasına xidmət edir. Milli dövlətin qurulması və dövlətçilik ideyalarının həyata keçirilməsi və bu proseslərin dönməzliyinin təmin edilməsi xalq qarşısında ən böyük xidmətdir. Ümummilli Lider Heydər Əliyev dövlətin inkişafında çoxpartiyalılıq prinsipinin reallaşmasının, vətəndaş cəmiyyətinin inkişaf etməsinin tərəfdarı olub. Lakin o, qeyd edirdi ki, "kim müxalifətdə durursa dursun, ancaq vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın". Bu gün Prezident İlham Əliyev də məsələlərə bu prizmadan yanaşaraq bildirir ki, əsas məqsədimiz elə siyasi sistem yaratmaqdır ki, fərqli baxışlardan asılı olmayaraq hər bir siyasi qüvvə üçün bir amal müqəddəs olsun, o da dövlətçilik, müstəqillik, azadlıq, rifah və inkişafdır. Belə olan halda həm siyasi müstəvidə işlər müsbət istiqamətdə gedəcək, eyni zamanda ölkədə mövcud olan problemlər daha tezliklə həll olunacaq. Çünki müxalifət nümayəndələri bəzən iqtidar nümayəndələrinin görmədiyi qüsurları görürlər, onları dilə gətirirlər, onları diqqətə çatdırırlar və bu, çox müsbət haldır. Ancaq, eyni zamanda bir daha demək istəyirəm ki, bütün siyasi qüvvələr üçün bir amal, bir məsələ toxunulmaz olmalıdır, bu da bizim müstəqilliyimiz, dövlətçiliyimiz və dövlət maraqlarıdır. Ən mühüm məsələlərdən biri də həmin dövrdə ictimai şüurun düzgün istiqamətləndirilməsidir. Əlbəttə ki, burada kütləvi informasiya vasitələrinin böyük imkanları yada düşür. Digər tərəfdən, uşaq, yeniyetmə və gənclərin tərbiyəsində təhsil müəssisələri mü-





hüm yer tutur. Lakin burada verilən biliklə, müəllimlərin öyrətdikləri ilə real həyat arasında uyğunluq, qarşılıqlı tamamlama olmalıdır. Əgər onlar nüfuzlu adamların, vəzifəli şəxslərin, ziyalıların, tanınmış incəsənət və mədəniyyət nümayəndələrinin həyat tərzində müəyyən nöqsanlar, ziddiyyətlər görürlərsə, onun mənfi təsiri daha çox olacaqdır. Axı gənclər əsasən tanınmış adamları özlərinə ideal, kumir seçir, onlara oxşamağa çalışırlar. Bu mənada yaxınlaşan təhlükəni dərk edən Ümummilli Lider Heydər Əliyev milli-mənəvi dəyərlərin qorunması və gələcəkdə törədəcəyi fəsadların aradan qaldırılması məqsədilə deyirdi: "Ölkəmizin ictimaiyyətinin müxtəlif təbəqələrinə mənsub olan şəxslər, bəzi adamlar verilmiş bu azadlıqdan öz şəxsi məqsədləri üçün sui-istifadə edirlər. Ya anlamırlar, ya da anlayaraq bizim xalqımızın mənəviyyatını, əxlaqını və xüsusən də gənclərin əxlaqını pozmağa cəhd göstərirlər". Ulu Öndər eyni zamanda cəmiyyətdə bərabərsizliyin, xüsusilə də cəmiyyətdə bir qisim insanların asan yolla var-dövlət sahibi olmasının sosial təzadların yaranmasına gətirib çıxardığını qeyd edirdi. O deyirdi: "Bir qütbdə həddindən artıq zənginləşmiş, bəzi hallarda qanunsuz zənginləşmiş, harınlaşmış insanlar və onların övladları eyş-işrət içərisindədir, o biri tərəfdə çadırlarda yaşayan insanlar inildəyirlər, nə qədər əziyyət çəkirlər". Sözsüz ki, bu paradoksal hadisələr mənəvi həyatımıza təsir göstərir. Lakin istər milli tariximizdə, istərsə də beynəlxalq tarixdə, eləcə də bu günümüzdə elə zəngin insanlar var ki, çox sadə həyat tərzi sürür və var-dövlətlərini millətin inkişafına sərf

edirlər. Bu baxımdan Heydər Əliyev insanları yaxşı nümunələri öyrənməyə çağırırdı. Avropada, Amerikada zəngin adamların, böyük biznesmenlərin real həyat tərzinin nə dərəcədə işgüzar, səmərəli və sadə olduğunu yada salırdı. Bizim mətbuat da, televiziya da, bədii ədəbiyyat da bu yaxşı nümunələrin təbliğinə daha geniş yer verməlidir, həqiqətdən uzaq olan, ideoloji və mədəni-mənəvi təxribata xidmət edən bayağı nümunələr efirə yol tapmamalıdır. Bu gün də Prezident cəmiyyətdə narazılıq yaradanlara, eyni zamanda vəzifəsindən sui-istifadə edənlərə qarşı mübarizə aparır. Hazırda Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli islahatlar Azərbaycan dövlətinin siyasi xarakterini və inkişaf yolunu müəyyən edir. Bu müəyyənləşmə Azərbaycanın qısa müddət ərzində iqtisadi inkişaf göstəricilərinə görə bütün dünyada liderə çevrilməsi faktıdır. Bakı-Tbilisi-Ceyhan, BakıTbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi nəhəng layihələrin gerçəkləşməsi, respublikamızın ümumilikdə Avropa regionunun gələcək enerji təhlükəsizliyi missiyasını üzərinə götürməsi xalqımızın dünya arenasında layiqli yerini təmin edir. Azərbaycan insanının gün-güzəranı yaxşılaşır, şəhər, kənd və qəsəbələr abadlaşır, respublikamızda işsizlik, yoxsulluq kimi ağır sosial bəlalar artıq həllini tapır. Bütün bunlarla yanaşı Azərbaycanda demokratiyanın təntənəsi, qanunların aliliyi, haqq-ədalətin zəfəri üçün bütün lazımi tədbirlər reallaşdırılır. Azərbaycanın mövcud iqtisadi potensialının insan kapitalına çevrilməsi istiqamətində atılan addımlar elmi inkişafa doğru sürətli kurs götürüldüyünü təsdiqləyir.





Dövlət başçısı həyata keçirdiyi islahatları məhz dahi şəxsiyyət Heydər Əliyevin müəllifi olduğu möhkəm təməl üzərində davam etdirir və yeni dövrün tələblərinə uyğun olaraq daha da zənginləşdirir. Bütün bunlar tam mənada deməyə əsas verir ki, Prezident İlham Əliyevin dövlətçilik təcrübəsində siyasi varislik ənənələrinin davamı, eyni zamanda mütərəqqi inkişaf meyillərinin gücləndirilməsi ideyası üstünlük təşkil edir. Biz hər birimiz fəxr edirik ki, bu gün onun yolunu və ideyalarını dünya siyasətçiləri arasında sayılıb-seçilən dövlət xadimi, Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva daha da gücləndirirlər. Onların bu fəaliyyəti Heydər Əliyev ənənələrinə, irsinə sədaqəti bir daha təsdiqləyir. Tarix belə dahiləri tək-tək yetirir. Ulu Öndər də nadir şəxsiyyət, fenomenal insan idi. O, bütün fəaliyyəti boyu qabaqcıl və mütərəqqi qüvvələrə arxa, dayaq olmuş, xalqı öz arxasınca aparmışdır. Bütün ömrünü vətəninə, xalqına sədaqətlə xidmətdə görən Ümummilli Liderin xatirəsi hər bir azərbaycanlının qəlbində yaşayacaq və onun "Vətən birdir və hamı bu vətən uğrunda çalışmalıdır!" deyimi hər bir Azərbaycan vətəndaşının həyat amalına çevriləcəkdir.

## TÜRK DÜNYAMIZA MÜZƏFFƏR OĞUL BƏXŞ EDƏN ANA...

*Türk dünyasına İlham Əliyev böyüklükdə dahi şəxsiyyət yetirən müqəddəs Ana, görkəmli həkim, akademik Zərifə xanım Əliyevanın əziz xatirəsinə ehtiramla...*

Türk dünyasının ümummilli lideri, ürəklərimizdə ölümsüzləşən ulu öndərin əziz xatirəsinə həsr etdiyim məqaləmi qələmə alarkən bu ilin aprelində anadan olmasının 100 illik yubileyini qeyd etdiyimiz Azərbaycanın gözəl xanımı, Azərbaycan Oftolmologiya Elminin inkişafında müstəsna xidmətləri olan böyük oftolmoloq, Azərbaycanın əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, akademik Zərifə xanım Əliyevanın – Türk dünyasına İlham Əliyev kimi Müzəffər Ali Baş Komandan bəxş edən şərəfli Ananın haqqında yazmağı Zərifə xanımın müqəddəs ruhu qarşısında özümə bir vəfa borcu hesab etdim.

Azərbaycan tibb elmində silinməz izlər qoymuş, səhiyyəmizə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanı xatırlayanda həm də gözlərimiz önündə mənəvi kamilliyinin ən uca zirvəsində dayanan görkəmli elm fədaisinin işıqlı çöhrəsi canlanır. Eyni zamanda, onun simasında nəcib Azərbaycan qadını, vəfalı ömür-gün yoldaşı,





fədakar ana obrazı görürük. Yüksək intellekt və mədəniyyət, dərin bilik, insanpərvərlik, Vətənə məhəbbət və xeyirxahlıq kimi keyfiyyətlər Zərifə xanımın portretini tamamlayan əsas cizgilərdir.

Ümummilli lider Heydər Əliyevin öz ömür-gün yoldaşına bəslədiyi müqəddəs məhəbbət duyğuları insanı riqqətə gətirəcək qədər təsirlidir. Zərifə xanım Ümummilli Liderlə çiyin-çiyinə addımlayır, qayğısına qalır, çətin günlərdə ona arxa-dayaq olurdu. Bu yükü kövrək çiyinlərində böyük mətanət və fədakarlıqla daşıyırdı. Eyni zamanda, övladlarını vətənin layiqli övladları kimi, öz nəslinin yüksək mənəvi dəyərlərinin varisi kimi yeti°dirirdi.

Sıravi həkimlikdən akademikliyə qədər yüksəlmiş Zərifə xanım oftalmologiya elminin inkişafına dəyərli töhfələr verib, bu sahə üzrə yüksək ixtisaslı kadrlar yetişdirilməsinə böyük əmək sərf edib. Akademik Zərifə xanım Əliyevanın zəngin irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir.

Bütün bu uğurların kökündə isə akademik Zərifə Əliyevanın aldığı həyat dərsi dayanırdı. Doğulub boya-başa çatdığı mühitin onun taleyində həlledici rolu olub. Zərifə xanım 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində, dövrünün görkəmli dövlət xadimi Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açmışdı. Atası Əziz Əliyev həm rektor, həm də nazir kimi yüksək vəzifələrdə çalışmış, dərin intellekti və təşkilatçılıq bacarığı ilə böyük nüfuz qa-

zanmışdı. Atasının yolunu davam etdirməyi, gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və 1947-ci ildə həmin institutu əla qiymətlərlə bitirir. Oftalmologiya peşəsinə yiyələnmək arzusu isə gənc mütəxəssisi Moskva şəhərinə aparıb çıxarır və o, Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik ixtisasartırma kursu keçərək həkim-oftalmoloq ixtisasına yiyələnir.

Həmin dövrdə Azərbaycanda bir sıra göz xəstəlikləri geniş yayılmışdı, traxoma deyilən dəhşətli bəla tüğyan edirdi. İnsanları bu bəladan xilas etmək, eləcə də digər aktual problem olan gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, onların effektli müalicə metodlarını və profilaktik tədbirləri işləyib hazırlamaq lazım idi. Zərifə xanım Əliyeva məhz belə bir vaxtda Moskvadan vətənə qayıdır və Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlayır. Gənc tədqiqatçının elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirir və o, elmi istiqamətlərinin ilkin mərhələsini traxomanın müalicəsinə həsr edir. Traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, xəstəlik ocaqlarını aşkarlayır, göz həkimlərinə mühazirələr oxuyur, əhali arasında söhbətlər aparırdı. Çox keçmədən Zərifə xanım traxoma xəstəliyinin başlanğıc dövründə sintomisinin tətbiqində uğurlu nəticələrə nail oldu. Tədqiqatlarının yekunu olaraq 1960-cı ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etdi. Onun təklif etdiyi müalicə metodu tezliklə geniş təcrübi tətbiqini tapdı və nəticədə respublikada traxoma bir xəstəlik kimi ləğv olundu.





Görkəmli alim sonra fəaliyyətini Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasında davam etdirir. Burada dosent, professor, kafedra müdiri vəzifələrində işləyir, oftalmologiyanın aktual problemlərinə həsr edilmiş çoxprofilli tədqiqatlar aparır. Həmin dövrdə Zərifə xanım oftalmologiyanın aktual problemlərinə xüsusi diqqət yetirirdi. Bu problemlər arasında diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi xüsusi yer tutur. Onun diqqətini oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi – görmə orqanının peşə patologiyası cəlb edir. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə deyil, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin elmi şəkildə tədqiqi ilə əlaqədar idi. Zərifə xanım bu sahənin ilk tədqiqatçısı olub. Görkəmli alim dünyada ilk olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoyub. Zərifə xanım Əliyeva bu sahəyə dair araşdırmalarının ilkin nəticələrini ümumiləşdirərək Moskvada, M.Helmholts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın kimya sənayesi işçilərində görmə orqanının vəziyyəti" mövzusunda dok-

torluq dissertasiyası müdafiə edib. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru alimlik dərəcəsi verilib.

Zərifə xanım uzun illər respublikanın ondan artıq iri sənaye müəssisəsində genişmiqyaslı elmi-tədqiqat işləri aparıb. Bu tədqiqatların nəticələri "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmologiya" və "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi dəyərli monoqrafiyalarında öz əksini tapıb. 1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə və oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə akademik Zərifə Əliyevaya keçmiş ittifaqın oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafat verilmişdi. O, həmin mükafata layiq görülən ilk qadın alim idi.

Zərifə xanım bir sıra dərs vəsaiti və monoqrafiyaların da müəllifi olub. Onların arasında "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri", "Kəskin virus konyuktivitləri", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" əsərləri xüsusi yer tutur. Alimin göz yaşı xəstəliklərinə həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" və digər əsərləri tibb ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanmışdı. Bunlarla yanaşı, Zərifə xanım Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə məşğul olub, bu sahəyə dair iki monoqrafiya hazırlayıb. Dünya miqyasında iridodiaqnostikaya aid kitabları da ilk dəfə Zərifə xanım Əliyeva yazıb.





Təsadüfi deyildi ki, Zərifə xanımın birbaşa rəhbərliyi altında gənc elmi işçilərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmiş, o özündən sonra dəyərli məktəb qoymuşdu.

Bir-birindən dəyərli 150-dən çox elmi əsərin, 12 monoqrafiyanın, 12 səmərələşdirici təklifin və dərs vəsaitlərinin müəllifi olan, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan Zərifə Əliyevanın açdığı yol ildən-ilə genişlənir, zəngin irsi, pedaqoji fəaliyyəti dönə-dönə araşdırılır, öyrənilir və neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir.

Görkəmli alim N.Puçkovskaya yazır ki, Zərifə Əliyevanın fəal təşkilatçısı olduğu qurultaylarının birində nümayəndələrdən birinin ayağının sındığını və onun müalicəsinə Zərifə xanımın necə can yandırdığını yaxşı xatırlayır: "O, hər gün xəstəxanaya gəlir, xəstənin halına qəlbən yanır, hətta lazım olan şeyləri öz evindən gətirirdi ki, müalicəyə xeyri dəysin. Zərifə xanım xəstəyə bir-iki gün deyil, bütün müalicə müddətində hər gün baş çəkdi".

1979-cu ildə Oftolmoloqlar Cəmiyyətinin Moskvada keçirilmiş iclasında Zərifə xanımın möhtəşəm çıxışı haqqında həmin illərin mətbuatında çox yazılıb. Zərifə Əliye-

va peşəkar bir natiq kimi həkimin mənəvi tərbiyəsi, dövrün ən müasir tibb etikası və mənəviyyatı ilə bağlı maraqlı məruzə ilə çıxış edib. Zərifə xanımın çıxışı o qədər yüksək səviyyədə qarşılanıb ki, çıxış etdikdən sonra Sovet oftolmologiyasının patriarxı sayılan, məşhur oftalmoloq M.M.Krasnov Zərif xanıma yaxınlaşaraq qarşısında baş əyib, onun əlini öpüb: "Mənim sadəcə sözüm yoxdur. Sizə heyranam!" deyib.

Rusiyalı məşhur oftalmoloq, tibb elmləri doktoru, professor Z.M.Skripçenko Zərifə xanım Əliyeva haqqında xatirələrində onu "Qoruyucu Mələk" adlandırır: "Bir dəfə Zərifə xanımla birlikdə həmkarlarımızın evində qonaq idik. O, yüksək intellektli adamların əhatəsində öz cəlbedici sadəliyi və həyat eşqi ilə seçilirdi. Siz təsəvvür edirsinizmi, bir həkim fortepianoda musiqiyə xüsusi rənglər verərək populyar melodiyalar, ritmik rəqslər ifa edirdi. O, həm də peşəkar pianoçu idi.

Onun saf məhəbbəti ömür-gün yoldaşına, ümummilli liderimiz Heydər Əliyevə də güc verirdi. Zərifə xanım ömrünün axırına qədər həyat yoldaşına ləyaqətli ömür-gün yoldaşı, arxa-dayaq olub. Vəfatından uzun illər keçsə də, Heydər Əliyev hər dəfə onun adını çəkəndə, onunla bağlı danışanda kövrəlir, göz yaşlarını boğa bilmirdi. Bir qadının qiymətini bundan artıq necə ifadə etmək olar ki?

Ulu Öndər Heydər Əliyev həmişə Zərifə xanımı kövrək duyğularla xatırlayardı. Bir dəfə müsahibələrinin birində demişdi ki: "Zərifə xanım çox böyük alim idi. Mən hələ onunla həyat quranda o artıq elm yolunda idi, elmlə





məşğul idi. Onun elmi fəaliyyəti bütün dünya tibb elminə məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə bir insan idi. Tayı-bərabəri olmayan ana idi. Ailəmizin bu günə gəlib çatması, ailəmizin ayaq üstə dayanması, övladlarımın düzgün tərbiyəsi və həyatımdakı əvəzsiz rolu üçün mən Zərifə xanımın müqəddəs ruhu qarşısında baş əyirəm. İllər keçsə də, onu bir dəqiqə belə unutmamışam və unutmaram da. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Zərifə xanım onlara həm ana, həm həyat müəllimi olub."

Cənab Prezidentimiz İlham Əliyev isə həmişə Zərifə xanımın fədakarlığından, şəfqətli ürəyindən heyranlıqla danışır: Anam Atamın yalnız ömür-gün yoldaşı deyildi, Anam bütün işlərdə Atama arxa-dayaq olardı. Anam hər qərarında atamı dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mehriban münasibət özü bizi tərbiyə edirdi. 1970-ci illərdə Atam Azərbaycana birinci katib təyin olunmuşdu və ölkənin birinci şəxsinin həyat yoldaşı kimi anamın yüksək imtiyazları ola bilərdi. Amma Anam o qədər sadə qadın idi ki, heç zaman büruzə vermirdi ki, o, Heydər Əliyevin – Birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olardı. Anam çox təvazökar idi. Onun yanına şəfa tapmaq üçün gələnin də, ayrı sosial qayğıları olan adamların da ümid yeri idi Anam... Hətta heç tanımadığı adamlar belə ona müraciət edəndə Anam onların hamısına kömək etmək, əl tutmaq üçün can atırdı. O, həmişə insanlığa kömək etmək, cəmiyyət üçün faydalı insan olmaq arzuları ilə yaşayırdı və əməlində də bunu həyata keçirirdi.

Anam çox hərtərəfli istedadlı qadın idi. Yalnız öz sahəsini yox, musiqi sahəsini də sevərdi. İstənilən melodiyanı notlara baxmadan xüsusi məharətlə pianoda ifa edərdi. Evimizin şənliyi idi Anam. Teatrı çox sevərdi. Bizi demək olar ki, nümayiş olunan bütün tamaşalara aparardı. Mən çox xoşbəxt övladam ki, Zərifə xanım kimi Anam olub. Əfsuslar olsun ki, o bu həyatdan tez köçdü... Yaşasaydı, Azərbaycan üçün daha böyükmiqyaslı işlər görəcəkdi..."

Cənab prezidentimizin əziz Anası haqqında bu fikirlərini qələmə aldıqca kövrək duyğularla bərabər həm də içimi qürur hiss bürüyür... Ürəkdən inanıram ki, Zərifə Xanımın uca ruhu bu gün bizimlədir. Allah qatında yeri uca, məqamı behişt, ruhu şad olsun! Ruhunun İşığı bir Ana xeyir-duası kimi daim Ali Baş Komandanımızın və bu xalqın başı üzərində, əziz xatirəsi isə həmişə qəlbimizdədir. Zərifə Xanım bu millətə təkcə itirilmiş torpaqlarını namərd düşmən tapdağından azad edən Sərkərdə yox, ucaltdığı bayraq kimi bütün Türk millətinin qeyrətini, ləyaqətini ucaldan Ər qeyrətli Oğul, Müzəffər Ali Baş Komandan ərməğan edib. Dünya durduqca Var olsun! Allah Prezidentimizi – Türk dünyasının Müzəffər Ali Baş Komandanını qorusun! Allah Türk Dünyamızı qorusun!





## XURAMAN MURADOVA: BİZ HAMIMIZ ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEVİN ƏSGƏRLƏRİYİK!

Milli davamız – Vətən savaşımız müzəffər Ali Baş Komandanımızın rəhbərliyi və yenilməz ordumuzun dünyaya səs salan şanlı zəfəri, məğrur xalqımızın "Dəmir yumruq" ətrafında sıx birləşməyinin, milli birlik və düşüncə bütövlüyümüzün təntənəsi olaraq tarixə çevrildi. Uzun illər idi ki, hiyləgər və məkrli ermənilərin müxtəlif azğınlıqları ilə qarşılaşan xalqımız nəhayət ki, öz haqq savaşına qalxaraq, 30 il işğal altında olan torpaqlarımızı yağı düşməndən azad etdi və möhtəşəm qələbəyə imza ataraq tarixi ədaləti bərpa etməyə müvəffəq oldu.

Ermənistanın vaxtaşırı törətdiyi bəd əməllərin davamı olaraq 2020-ci ilin sentyabr ayının 27-də növbəti hərbi təxribatından sonra Azərbaycan Ordusunun 44 gün davam edən əks-hücum əməliyyatı noyabrın 10-da tarixi qələbəmizlə başa çatdı. Həmin gün Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanan birgə bəyanatla Silahlı Qüvvələrimizin hərbi cəbhədəki möhtəşəm qələbəsi diplomatik sahədə də rəsmiləşdirildi. Beləliklə, xalqımızın 30 il çəkən torpaq həsrətinə son qoyuldu, haqq yerinə düşdü, ədalət bərpa edildi. Eyni zamanda, Prezident, Ali Baş Komandan İlham Əliyev qalib sərkərdə, Azərbaycan Silahlı Qüvvələri güclü ordu, xalqı-

mız isə böyük, məğrur, yenilməz xalq olduğunu bir daha təsdiqlədi.

İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsində dövlətimizin başçısının da dəfələrlə vurğuladığı kimi, bizim birlikdə güclü olmağımız önəmli rol oynadı. Bir sözlə, Xalq-Prezident-Ordu vəhdəti ərazi bütövlüyümüzün bərpasında, torpaqlarımızın işğaldan azad edilməsində mühüm rola malik oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərancamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınmışdır. Bir sözlə, Vətən müharibəsi insanların illər boyu vərdiş etdikləri həyat fəlsəfəsini dəyişdi, yeni bir təfəkkür hadisəsini – qalibiyyət fəlsəfəsini doğurdu. Ordu və bayraq sevgisini həmişəlik könüllərə və zehinlərə yerləşdirdi, hər kəsə yeni həyat gücü və enerjisi bəxş etdi. İndi elə bir vətəndaşımız tapılmaz ki, ən qısa zamanda mənfur düşməndən azad edilmiş müqəddəs torpaqlarımızı ziyarət etmək arzusunda olmasın. Vətən müharibəmizdə fərdi qəhrəmanlıq qrup və kollektiv qəhrəmanlığını doğurdu, qısa zamanda bu bütün xalqın qəhrəmanlığına yol açdı. Müharibənin ilk günündən Ali Baş Komandanın tam qələbəyə inamlı çağırışı, zəfər ümidli müraciətləri bütün xalqımızı qəhrəmana çevirdi.





Şübhəsiz ki, ölkəmizə rəhbərlik etdiyi dövrdə cənab İlham Əliyevin müdrikliyi və uğurlu siyasəti ilə Azərbaycan bu qələbəyə addım-addım yaxınlaşırdı. Münaqişənin davam etdiyi illərdə cənab Prezident çox böyük uzaqgörənlik və təmkinlə həm diplomatik, həm də ordu quruculuğunda təxirəsalınmaz tədbirlər reallaşdırırdı. İştirakçısı olduğu ən yüksək beynəlxalq tədbirlərin tribunalarından Qarabağ həqiqətlərini dünyaya bəyan edir, aparıcı dövlətlərin rəhbərlərinin diqqətinə bu bölgənin ölkəmizin əzəli torpaqğı olduğunu və işğaldan azad edilməsinin labüdlüyünü çatdırırdı. Eyni zamanda, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi, ən müasir hərbi texnika ilə təchizatının təmin edilməsi üçün səylər göstərdi.

Yeri gəlmişkən, müharibənin davam etdiyi günlərdə dövlət başçısı xarici ölkələrin nüfuzlu kütləvi informasiya vasitələrinə, telekanallarına verdiyi müsahibələri ilə də respublikamızın haqq səsini dünya ictimaiyyətinə tutarlı arqumentlərlə çatdırdı, həmçinin Azərbaycanın beynəlxalq hüququn tələblərinə uyğun öz torpaqlarında savaş apardığını sübut etməklə ermənipərəst xarici dairələrin döyüşlərin gedişinə müdaxilələrinin qarşısını böyük məharətlə aldı.

Hərbi əməliyyatların gedişi zamanı Ali Baş Komandan İlham Əliyevin müntəzəm olaraq çatdırdığı qələbə xəbərləri, işğaldan azad olunan yaşayış məntəqələri, düşmənin məhv edilən canlı qüvvəsi və hərbi texnikası barədə məlumatları ölkəmizin hər bir vətəndaşında qürur, fərəh hissi doğururdu, xalqın dövlətimizin başçısına, rəşadətli ordumuza inamını gücləndirirdi.

Erməni hərbi birləşmələri üzərində qazanılan tarixi qələbədən sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilən ərazilərə səfərləri də dövlət başçısının sevinc hisslərini ilk növbədə, xalqla bölüşmək arzusundan irəli gəlir. Onun həmin bölgələrdə yaşayan əhali tərəfindən böyük coşqu və izdihamla qarşılanması isə xalqın öz liderinə, müzəffər sərkərdəsinə bəslədiyi ehtiramın təzahürüdür.

Ölkə rəhbəri Füzuli, Cəbrayıl və Ağdam rayonlarına tarixi səfər etməklə "Qarabağ Azərbaycandır və nida" ifadəsinin müəllifi kimi bir daha xalqa verdiyi bütün vədlərə sadiqliyini nümayiş etdirdi. Bunula da siyasətdə, diplomatiyada və hərbi strategiyada Dövlət Başçısının adı bu Şanlı Zəfərin Müəllifi kimi tarixə əbədi yazıldı.

Ey zirvələrdə uçan Qartalım!
Müqəddəs Vətənin səmalarında,
Dayanmadan hey qanad çalacaqsan...
Böyük Türküstanın sevdasıyla sən
Qarabağ köksündən Tanrı dağına,
Əbədi sarsılmaz Yol salacaqsan.

Ey zirvələrdə uçan Qartalım!
Qarabağın göylərində
Ərşə qalxır dualarım
Yorulmasın qanadların...
Sənin adın, Sənin Yolun
Bir mirasdır gələn yeni nəsillərə
Ümid apar Türk Ellərə!





Könüllərdə fəth etdiyin ucalıqla
Qarabağdan Tanrıdağa varacaqsan!
Hünər, qeyrət və yenilməz cəsarətlə,
Sıxıb mavi hilalımı qanadına...
Şimşək təkin
Asimanı yaracaqsan...

Ey zirvələrdə uçan Qartalım!
Sən elə böyüksən, elə ucasan!
Böyük qüdrətinlə, Turan sevginlə
Xarıbülbül ətirli Qarabağımdan
Könüllər sultanı Tanrı dağına
Əbədi sarsılmaz Yol salacaqsan!

Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü, ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşa əməliyyatı çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutur. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir.

Dövlətimizin başçısı xalqa hər müraciətində haqqa, ədalətə söykənərək işğal altındakı bütün torpaqlarımızın tezliklə azad ediləcəyini, üçrəngli bayrağımızın bu ərazilərimizdə dalğalanacağını böyük inamla, əminliklə bildirirdi. Yağı tapdağından qurtulan yurd yerlərimizin xilası ilə bağlı qələbə müjdələri ulu öndər Heydər Əliyevin siyasi

kursunu bütün sahələrdə uğurla reallaşdıran Prezident İlham Əliyevin ata vəsiyyətini yüksək səviyyədə yerinə yetirdiyinin təsdiqinə çevrildi. Ali Baş Komandan Qarabağın tacı, incisi olan Şuşanın işğaldan azad edilməsi xəbərini isə Şəhidlər xiyabanından xalqa çatdırarkən bu fikri xüsusi vurğuladı: "Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim".

Bu müharibə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik və uzaqgörən siyasətçi olmaqla yanaşı, həm də mahir sərkərdəlik bacarığını, çətin, ağır şəraitdə düzgün qərar vermək istedadını bir daha bütün dünyaya nümayişi etdirdi. Azərbaycan, Rusiya Prezidentlərinin və Ermənistan baş nazirinin birgə bəyanat imzaladıqları gün dövlətimizin başçısı xalqa müraciətində məhz bu məsələni xüsusi vurğulayaraq, bildirdi ki, "biz döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda gücümüzü göstərmişik, müstəqilliyimizi göstərmişik".

Xalqımız öz haqq savaşında zəfər çalması ilə qalib xalq olduğunu dünyaya sübut etdi. 44 günlük müharibədə Ordumuzun qəhrəmanlığı, Ali Baş Komandanın qətiyyəti ermənilərin və havadarlarının bölgədəki siyasətinin iflası ilə nəticələndi və böyük siyasi, diplomatik səy hesabına əldə edilən bütün bu uğurlar Azərbaycanın tarixi qələbəsi, işğalçı Ermənistanın və dünya erməniliyinin isə ağır, ölümcül məğlubiyyətinin ifadəsi oldu.





Qalib Prezidentimizin qeyd etdiyi kimi, rəşadətli və şanlı Azərbaycan Ordusunun Tarixi Zəfəri gənclərimizin bitib-tükənməz vətənpərvərliyini, müasir dövrdə vətənimizə, dövlətimizə və xalqımıza layiq olan gözəl, dəyərli bir nəslin formalaşdığını bütün dünyaya nümayiş etdirdi. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Bu gün Azərbaycanın ərazi bütövlüyü tam təmin olunub, Xocalı, Ağdərə, Xankəndi azaddır. Müzəffər Ali Baş Komandanımız 15 oktyabr 2023-cü ildə Xankəndində Azərbaycan bayrağını ucaltması ilə "Nəyi, necə, nə vaxt etmək lazımdır onu mən bilirəm" ifadəsini sözün əsil mənasında qızıl sözlər kimi hər bir insanın sevinclə, qururla təkrarladığı aksioma çevirdi.

Qədirbilən xalqımız bu gün Möhtəşəm Qələbənin 3-cü ildönümünün sevincli günlərini yaşayır və ölkəsini sevən, Vətəninə sonsuz sevgi ilə bağlı olan hər bir Azərbaycanlı ümummilli lider Heydər Əliyevin ideyalarını öz fəaliyyətində rəhbər tutmağa, Azərbaycan gəncliyinin lideri olan Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin əbədi yaşaması uğrunda mübarizə aparmağa hər an hazırdır.

## AZƏRBAYCAN - TÜRKİYƏ PREZİDENTLƏRİNİN QARDAŞLIĞI TURANIN AYAQ SƏSLƏRİDİR...

Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir,
Eşqimiz bir, yolumuz bir
Azərbaycan – Türkiyə.
Bir millətik, iki dövlət
Eyni arzu, eyni niyyət.
Hər ikisi Cumhuriyyət
Azərbaycan – Türkiyə...

Bu səhər oxuduğum bir yazı hisslərimi bu şəkildə sözə çevirməyimə və bu məqaləni yazmağıma səbəb oldu. Azərbaycanın Praqadakı səfiri Adış Məmmədovun dəvəti ilə Türkiyənin ordakı səfiri cənab Egemen Bağış mərhum prezidentimiz ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar nəşr olunan "Heydər Əliyevin həyatının 100 anı" kitabının təqdimat mərasimində çıxış edib. Səfir çıxışında bildirib ki, Azərbaycanın cumhurbaşqanı mərhum ümummilli lider cənab Heydər Əliyev 2002-ci ildə Prezident Rəcəb Tayyib Ərdoğanı Bakıda qonaq edəndə "Azərbaycan və qardaşın İlham sizə əmanətdir" demişdi. Ulu Öndər Haqq dünyasına qovuşduqdan sonra cənab Ərdoğan Prezident İlham Əliyevi doğma qardaşı kimi qucaqladığını, Azərbaycanı öz yurdu, evi kimi bildiyini aydın görürük. Ulu Öndər Heydər Əli-





yevin bu səhər oxuduğum bu vəsiyyəti məni çox düşündürdü. Və ürəkdən inandım ki, mərhum Prezidentimizin əziz ruhu bu gün şaddır. Bu gün bütün dünyaya heyran olan türklərin yenilməz iradəsi ilə qazanılan Qarabağ Zəfəri, sarsılmaz Türkiyə-Azərbaycan qardaşlığı, Türkiyə-Azərbaycan Birliyi Böyük Turanın ilk addımlarıdır... Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın mübarək imzaları ilə tarixə çevrilən şanlı Şuşa Bəyannaməsi Türk Dünyasının Birlik, Həmrəylik və Qardaşlığının rəmzidir - Böyük Turanın ilk addımlarıdır...

Şuşa bəyannaməsi Çin sərhədindən Adriatik hövzəsinə qədər bölgədə böyük vahid Türk Dövlətləri Birliyinin yaranışı əlamətlərini daşıması baxımından tarixi bir bəyannamədir. Bu bəyannamənin ardınca gedən proses qarşısındakı erməni divarını dağıtmağa, yuxarıda isə Rusiya ilə İran divarını sarsıtmağa yönəlmiş bir siqnal idi. Türkiyə və Azərbaycanın 2021-ci il iyunun 15-də imzaladığı Şuşa Bəyannaməsi bəyannamə olmaqdan çox, göründüyündən fərqli işarələri ehtiva edən tarixi bir mətndir. Xüsusən də Şuşa Bəyannaməsində "Azərbaycana hücum Türkiyəyə, Türkiyəyə hücum isə Azərbaycana hücum kimi qiymətləndiriləcək" vurğusu heç bir səbəbə görə deyilən vurğu deyil. Bu yazı Türkiyə və Azərbaycanın "iki millət bir dövlət" prinsipinin "bir millət, bir dövlət" prinsipinə gəldiyini göstərir. Ərdoğanın Azərbaycan Milli Məclisindəki çıxışında "Azərbaycanın taleyi bizim taleyimizdir" deməsi kağız

üzərində olmasa da, məna etibarilə vahid dövlət və vahid millət olmağımızın emosional əsasıdır...

Bir ananın iki oğlu,
Bir amalın iki qolu.
O da ulu, bu da ulu
Azərbaycan – Türkiyə!

Şuşa bəyannaməsində Türkiyənin müdafiə sənayesi məhsullarının Azərbaycanda istehsal ediləcəyi, Türkiyə müdafiə sənayesinin əldə etdiyi yüksək texnoloji imkanların texnologiya transferləri yolu ilə Azərbaycana ötürüldüyü vurğulanmışdır ki, bu da olduqca konkret ifadədir.

Burada Türkiyə-Özbəkistan, Türkiyə-Qırğızıstan, Türkiyə-Qazaxıstan kimi Azərbaycan-Türkiyə varisliyini oxuyanda görürük ki, Türkiyənin müdafiə sənayesində əldə etdiyi yüksək texnologiya imkanları qeyd-şərtsiz öz qardaşımız kimi tanınır və insanların müdafiə ehtiyacları üçün təqdim ediləcək.

Şuşa bəyannaməsi Çin sahillərindən Adriatik okeanına qədər bölgədə böyük vahid Türk Dövlətləri Təşkilatının yaradılmasının əlamətlərini daşıması baxımından tarixi bir bəyannamədir.

Əgər biz 5 il əvvəl Qarabağın işğaldan azad ediləcəyini desəydik, heç kim buna inanmazdı. Amma biz buna nail olduq. Qarabağın vətəni, xarıbülbüllərin vətəni Şuşa cənnətə çevrildi, azadlığına qovuşdu.





2020-ci il fevralın 27-də Azərbaycan ordusunun başlatdığı əməliyyatlarda işğalda olan ərazilərimiz azad edilmiş, Ermənistan məğlubiyyəti qəbul edərək işğal altında olan Ağdam, Laçın və Kəlbəcər rayonlarının boşaldılmasını vəd edən müqavilə imzalamışdır. Ermənistan ordusu 2020-ci il noyabrın 20-də Ağdamdan, 2020-ci il noyabrın 25-də Kəlbəcərdədən, 1 dekabr 2020-ci ildə isə Laçından geri çəkilmişdir.

Ermənistanın 30 ildir işğal etdiyi torpaqları geri alan müzəffər Prezident İlham Əliyev həmin tarixdə Dağlıq Qarabağın Muxtar Respublika statusunu ləğv etdiyini bəyan etmişdir. Gec-tez haqq-ədalət öz yerini tapacaqdı və şükürlər olsun ki, tapdı da... Torpaqlarımız Azərbaycan əsgərlərinin canı və qanı bahasına alındı. 3000 evə şəhid balalarımızın nəşi getdi... Azərbaycan itirdikləri üçün matəm elan etmədi, qazandıqlarını zəfər mərasimi ilə qeyd etdi. Qələbə mərasimində Azərbaycanın yanında Türkiyə oldu. "Türklərin türkdən başqa dostu yoxdur" ifadəsi mübaliğə kimi görünə bilər, lakin son hadisələr bir daha sübut etdi ki, bu şüarın arxasında heç vaxt dəyişməyən, mənasını itirməyən bir həqiqət dayanır.

Əzəldən bir doğulub
Birgə boy atmısınız,
Adı, ruhu, qanı, bir,
Kökü, soyu, canı bir,
Siz doğma qardaşsınız!
Yolunuz Haqq yoludur

İşıqlı gələcəyə
Azərbaycan-Türkiyə!

Tarix boyu bir olub
Yolunuz, məqsədiniz.
Dünyaya car çəkibdi
Türk adlı haqq səsiniz,
Sizin bu varlığınız
Bölünməzdir ikiyə
Azərbaycan-Türkiyə!

Baş əyməz türk övladı
Düşməninə, yadına.
Sadiq olub hər zaman
Özünün türk adına.
Layiqdir ərənliyə,
Layiqdir hər sevgiyə,
Azərbaycan-Türkiyə!

Qanınızda doğmalıq,
Sözünüzdə qürur var.
Yenilməz vüqarınız
Düşmənin bağrın yarar.
Siz ey doğma şahinlər!
Turana gedən yolun
Göyərən ümidləri
Sülhün göyərçinləri!
Nə mutlu Türküm deyə
Azərbaycan-Türkiyə!





Dağlıq Qarabağ münaqişəsi həll olundu; Azərbaycan Prezidenti İlham Əliyev tarixə yazılan çıxışlarının birində demişdi ki: "Artıq Dağlıq Qarabağ muxtar vilayəti deyilən coğrafiya yoxdur, bizim Azərbaycanın bir hissəsi olan Qarabağımız var. Bu muxtar bölgə Sovetlər dönəmində Böyük Türküstan kimi tanınırdı; əhalisi və xalqı türk olan coğrafiyalarda özlərinə uyğun gələndə mübahisə mənbəyinə çevrilməsi, eyni dili, eyni dini, eyni düşüncəni paylaşan türk xalqlarını birləşdirmək üçün yaradılmış bölgələrdən biri idi. Böyük Türküstan torpaqlarını bir-birinə qarşı çevirən, beyinlərini yuyan, qanlarını zəhərləyən siyasət əslində öz məqsədlərini güdərək türkləri parçalamağa, bir-birindən qoparmağa çalışırdı. Və bu muxtar vilayətlər arasında ən böyük problemi yaradan Qarabağ statusunun qələbəsini bayram edən ölkə artıq bir qələmlə silindi. "Dağlıq Qarabağın işğaldan azad edilməsi qüdrətli türk ordusunun üzünə Şərqin qapısını açdı". Cənubi Qafqaz Türkiyəni Orta Asiya ilə birləşdirən körpüdür. Sovet Sosialist Respublikaları İttifaqı yaranan kimi onların ilk işi Türkiyə ilə Azərbaycan arasında əlaqələri kəsmək oldu. Onlar bunu bacardılar və bu düşmənçiliyi 70 ildən çox davam etdirə bildilər. Üstəlik, türklərə düşmən saydıqları erməni xalqı üçün tarixi Azərbaycan torpaqlarında Ermənistan adlı dövlət qurdular və Türkiyənin başının üstündən Domokl qılıncı kimi asdılar. İndi o coğrafiyada; Cənubi Qafqazda şanlı türk bayrağı dalğalanır. Türklər Qafqaza yad deyillər. Çünki türklərin Qafqaza bələd olmasının ən mühüm səbəbi Qafqazın öz geosiyasi coğrafiyası ilə bağlıdır. Uzun

müddətdir ki, Xəzər dənizi ilə Qara dəniz arasında yerləşən Qafqaz türklərin tarix boyu vətən adlandırdıqları coğrafiya gerçəkləşdi. Hunlar Volqa çayını keçərək Dunay çayına Macarıstana çatdılar. Göytürk İmperatorluğunun bina etdiyi Xəzər dövləti Krımdan Xəzər dənizinə qədər, Dnestr çayı ilə Volqa çayı arasındakı coğrafiyanı əhatə edirdi. Məqsədimiz tarixin təkərini geri çevirmək, bunları yenidən izah etmək deyil. Əsrlər boyu dünyanın nizamı dəyişib, dünya dövlətləri bir sıra güclü dövlətləri parçalayıb, yeni dövlətlər qurublar. Parçalanmış və hər parçalanma ilə gücünü itirmiş nəhənglərə hakim olmaq və ya onları əzmək daha asan olduğu üçün türk xalqını da əsrlər boyu parçaladılar.

Turan, Türküstan; Bütün türk soylu xalqlarının birləşdiyi nöqtə Azərbaycan və Qarabağın kilidini açmaq demək idi. Dağlıq Qarabağ kənardan Azərbaycan problemi kimi görünsə də, əslində türk dünyasının problemi idi. Yenidən doğulmağın, yenidən birləşməyin açarı olan bu problem şükürlər olsun ki, həll olundu. Türk ordusu Cənubi Qafqazda məskunlaşdı. İki qardaş ölkə əl-ələ verdi. Qələbəmiz taleyimizə çevrildi. Türkiyə Dağlıq Qarabağın işğaldan azad edilməsini "Zəfər Günü" kimi qeyd edən Azərbaycanın tərəfində, yanında oldu. Bu, tarixdə böyük bir ilk oldu. Bu həm də türk gücündən qorxan, onu parçalayan, birləşməsinə mane olan qüvvələrə bir mesaj idi. Bütün bunlar böyük Turanın ilk addımlarıdır. 1991-ci ildə öz suverenliyini elan edən Azərbaycan ilk dəfə Türkiyə ilə milli layihələrdə əl-ələ verib və Cənubi Qafqazda ümumi





rifah sahəsi yaratmaq üçün çalışırdı. Bakı-Tbilisi-Ceyhan Neft Boru Kəməri (BTC), Bakı-Tbilisi-Ərzurum Təbii Qaz Boru Kəməri (BTE), Bakı-Tbilisi-Qars Dəmir Yolu Xətti (BTQ) və TANAP həyata keçirildi. İki türk dövlətinin - Azərbaycan və Türkiyənin bayraqlarının dalğalandığı bu qapı isə ulu Turan - Türküstanın zəfər zəngi kimi bütün dünyaya səs saldı...

Uca Allah dövlətimizi, dövlətçiliyimizi, dövlət başçımızı - Ali Baş Komandanımızı, Azərbaycanımızı, qardaş Türkiyəmizi, uca türk millətini, Türk birliyimizi, diriliyimizi, Türk dünyamızı qorusun! Amin İnşallah!

## KİTABIN MÜƏLLİFİ HAQQINDA...

Xuraman Muradova Müasir Azərbaycan səhiyyəsinin öncüllərindən olan "Vip Milan" hospitalın təsisçi direktorudur. Uzun illərdir, səhiyyə, tibbi xidmət sahəsində böyük fədakarlıqla xalqımıza, millətimizə, Azərbaycanımıza xidmət etməkdədir.

Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız Cənab İlham Əliyevin siyasi kursuna ən fədakar əsgər kimi sadiq bir insandır.

Azərbaycanın birinci xanımı, ölkəmizdə sevginin, şəfqətin, gözəl əməllərin və xeyirxahlığın simvoluna çevrilmiş dəyərli Mehriban xanımın işıqlı yolunu hər zaman rəğbətlə dəstəkləyən Xuraman xanım uzun illərdir ki, gənclərimizin ali təhsil alması, müxtəlif xəstəliklərdən əziyyət çəkən körpələrimizin müalicə olunması, xüsusilə də rəhbətlik etdiyi "Vip Milan" Hospitalda şəhid ailələrimizin və qazilərimizin sağlamlığı istiqamətində böyük ürəklə çalışan, vətəndaş borcunu layiqiylə yerinə yetirən ziyalı, xeyir əməllər sahibidir.

İşgüzar fəaliyyətləri ilə bərabər Xuraman xanım həm də ədəbi yaradıcılıqla məşğuldur. Azərbaycan Yazıçılar Birliyinin və Türkiyə Yazarlar Birliyinin üzvüdür. Türk Dünyası Beynəlxalq Elmlər Akademiyasının fəxri professoru və Vektor Beynəlxalq Elmlər Akademiyasının fəxri professorudur. II Türk Dünyası Beynəlxalq Ədəbiyyat festivalında "Türk Dünyası Onur medalı" ilə, 2023-cü ildə Azərbaycan Yazıçılar Birliyinin "Humay Milli Mükafatı"na layiq görülmüşdür. 2023-cü ilin oktyabrında Türkiyənin Elazığ şəhərində keçirilən Beynəlxalq "Xəzər şeir axşamları" şeir festivalında Azərbaycanı təmsil edərək Türk Ədəbiyyatı Vəqfinin "Türk ədəbiyyatına üstün hizmət" beratına layiq görülmüşdür. Cari ildə həmçinin İraq Respublikası Mədəniyyət Nazirliyi tərəfindən "Hizmət ödülü", Kərkük Kültür Dərnəyinin "Türk şeirinə hizmət" ödülü və Türkiyə Elmlər Akademiyasının "Altın madalyası" ilə təltif olunmuşdur.

Azərbaycan Silahlı Qüvvələrinin general-leytenantı, Xüsusi Təyinatlı Qüvvələrin Komandanı Hikmət Mirzəyev tərəfindən, 44 günlük Vətən Müharibəsi dövründə şəhid ailələrinə, qazilərə rəhbəri olduğu "Milan Hospital" özəl klinikasında təmənnasız xidmətlərinə, müalicə dəstəyinə görə Fəxri Fərman, Fəxri döş nişanları və "Vətənim, Bayrağım, Şərəfim" mükafatına layiq görülmüşdür.

Cənab İlham Əliyevin siyasətini dəstəklədiyinə, qazilərə və şəhid ailələrinə təmannasız müalicə və xeyirxahlıq işlərinə görə Azərbaycan Silahlı Qüvvələrinin general-leytenantı Mais Barxudarov tərəfindən Fəxri Fərmanla təltif olunub.

Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılmış Vətən müharibəsi dövründə vətən qarşısında vətəndaşlıq borcunu layiqincə yerinə yetirdiyinə və misilsiz əməyinə görə Naxçıvan Əlahiddə Ümumqoşun Ordu komandanının general-leytenantı Fazil Ağalarov tərəfindən Fəxri Fərmanla və eləcə də bir çox hərbi hissələr tərəfindən çoxlu sayda mükafatlarla təltif olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlətçilik siyasətini təbliğ etdiyinə görə Parlamentinsesi.az xəbər portalı tərəfindən "Şərəfli ömür" fəxri media mükafatına, Dünya Azərbaycanlıları Diaspor Təşkilatının "Buta" mükafatına və Azərbaycan Sahibkar Qadınlar İctimai Birliyi tərəfindən "Xurşidbanu Natavan" mükafatına layiq görülüb.

Gənc qızların ali təhsilinə göstərdiyi dəyərli töhfələrə görə Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən, Azərbaycan mədəniyyətinin inkişafında göstərdiyi xüsusi fəallığa görə Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi tərəfindən, Şəhid və qazi ailələrinə yardım və dəstəyinə görə Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatı tərəfindən, Rayon və bölgələrdə əhalinin sağlamlığı ilə bağlı göstərdiyi təmənnasız tibbi xidmət və xeyriyyəçilik fəaliyyətinə görə Qəbələ Rayon İcra Hakimiyyəti tərəfindən, Vətən müharibəsi və müharibədən sonrakı dövrdə cəbhəyə göstərdiyi dəstəyə görə Abşeron Rayon İcra Hakimiyyəti rəhbərliyi tərəfindən, Müqəddəs qurban bayramları ərəfəsində hərbi hissənin şəzsi heyətinə maddi və mənəvi dəstəyinə görə 877 N-li hərbi hissə tərəfindən dəfələrlə fəxri fərman, təşəkkürnamə və mükafatlarla təltif edilmişdir.

2021- ci ldə Azərbaycanda "Sənə məktub yazacam..." adlı ilk kitabı, 2023-cü ildə Türkiyənin Ankara şəhərində "Ay Laçın, can Laçın" adlı ikinci kitabı işıq üzü görüb.









# AZERBAYCAN'DA MİLAN HOSPİTAL'İN KURUCUSU BAŞARILI İŞ KADINI HURAMAN MURADOVA



Şuşa'nın azadlığında büyük rol oynayan efsanevi general Hikmet Mirzayev Huraman Muradova'ya plaket verirken














KARABAĞ






ƏRBAYCAN QADINLARININ VI QUR
AZƏRBAYCAN
QADINLARININ
VI QURULTAYI






"Özbəkistanım mənim! Sən də Ana Vətənim!" kitabı Özbəkistanda, " Salam olsun Qarabağdan Tanrıdağa!" kitabı qardaş Qırğızıstanda nəşrdədir.

Müzəffər Ali Baş Komandanımız Cənab İlham Əliyevin xalq üçün yaşanmış şərəfli ömür yolundan bəhs edən "Əsrə bərabər 20 il" kitabı dahi rəhbərimizin siyasətini həmişə ən sədaqətli bir əsgər kimi dəstəkləyən Xuraman xanım Muradovanın möhtərəm Prezidentimizə böyük sevgisinin və vəfa borcunun izharıdır.

## MÜNDƏRİCAT

Müzəffər Ali Baş Komandan Cənab
İlham Əliyev könüllərimizin fatehidir!..........................................3

Xuraman Muradova: Uca Rəbbim Müzəffər
Xalqımızın Müzəffər oğlunu qorusun!

Mehriban xanım Əliyeva - Tarix yazan Sərkərdənin
arxasında dayanan qeyrətli Türk Xatunu......................................9

Xuraman Muradova: "Azərbaycanın birinci xanımı,
əzizimiz, ölkəmizdə xeyriyyəçiliyin simvoluna çevrilən
Mehriban xanım Əliyevanın xeyirxahlıq yolunu mən
həmişə böyük rəğbət hissi ilə dəstəkləmiş və ürəkdən
alqışlamışam..."......................................................................26

Xuraman Muradova: Xilaskarı dəstəkləmək
milləti dəstəkləmək deməkdir!......................................................37

Ürəklərdə ölümsüzləşən Öndər Şəxsiyyət..................................49

Türk dünyamıza müzəffər Oğul bəxş edən Ana.........................64

Xuraman Muradova: Biz hamımız möhtərəm Ali Baş
Komandanımız Cənab İlham Əliyevin əsgərləriyik!..................78

Azərbaycan - Türkiyə Cumhurbaşqanlarının
qardaşlığı Turanın ayaq səsləridir..............................................102



XURAMAN MURADOVA

# ƏSRƏ BƏRABƏR
# 20 il

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Zahid Məmmədov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 04.03.2024
Şərti çap vərəqi 6. Sifariş № 35
Kağız formatı 60x90 1/16. Tiraj 500

**Kitab "Elm və təhsil"** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4